# SÜLHƏ VƏ ƏSGƏRƏ VERİLƏN DƏYƏR

Əsgərlərimizin azad olunması faktı bir daha göstərir ki, Silahlı Qüvvələrimizin hər bir üzvünün taleyi, təhlükəsizliyi Prezident İlham Əliyevin xüsusi diqqətindədir.

Dekabrın 13-də Azərbaycan ilə Ermənistan arasında hərbçilərin qarşılıqlı surətdə azad edilməsi prosesi baş tutub. Proses zamanı Azərbaycanın 2 hərbi qulluqçusu - Hüseyn Axundov və Aqşin Bəbirov azad olunub.

Azərbaycan bir daha nümayiş etdirdi ki, İrəvanla Bakı arasında aparılan danışıqlarda, qarşılıqlı etimadın yaradılması, münasibətlərin normallaşdırılması prosesində hər hansı üçüncü vasitəçiyə ehtiyac yoxdur.




SƏHİFƏ 5-də

## COP29-A HAZIRLIQ BAŞLADI

Müşavirədə çıxış edən Prezident İlham Əliyev bildirib ki, COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, tədbir çərçivəsində təqribən 70-80 min xarici qonağın ölkəmizə gəlişi gözlənilir.

SƏHİFƏ 2-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

16 DEKABR ŞƏNBƏ 2023 | 48 (4149) Qiyməti - 40 qəpik www.kaspi.az



# İLHAM ƏLİYEVİN NAMİZƏDLİYİ İRƏLİ SÜRÜLDÜ

YAP tərəfindən İlham Əliyevin Azərbaycanda keçiriləcək növbədənkənar Prezident seçkilərinə namizədliyi irəli sürülüb. Partiyanın İdarə Heyətinin iclasında bununla bağlı qərar yekdilliklə qəbul edilib.

**GÖRÜLƏN İŞLƏR DƏYƏRLƏNDİRİLİR**

YAP sədrinin müavini, Baş nazirin müavini Əli Əhmədov qeyd edib ki, İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilməlidir: “Bu gün qəbul edilən qərar təkcə YAP-ın prezidentliyə namizədinin irəli sürülməsi yox, Azərbaycan xalqının mövqeyi olacaq. İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilməlidir və qəbul ediləcək”.

**XALQIN ARZULARI REALLAŞDIRILIB**

Bu gün Azərbaycanın dünyanın ən hörmətli dövlətlərindən biri olduğunu vurğulayan Əli Əhmədov bildirib ki, Azərbaycan İlham Əliyevin rəhbərliyi altında tarixi nailiyyətlər əldə edib: “Prezidentin fəaliyyəti haqqında saatlarla danışmaq olar. Azərbaycan xalqı bu gün görülən işlərin şahididir. Prezident İlham Əliyev 20 illik fəaliyyəti ilə Azərbaycan xalqının arzu-istəklərini yerinə yetirib”.

SƏHİFƏ 3-də

## ANA KƏNDİN QINAĞINDAN ÇƏKİNSƏ DƏ...

# KONDUKTORLUQDAN FUTBOLA UZANAN ÇƏTİN YOLÇULUQ

Qadınlardan ibarət Azərbaycan millisinin kapitanı Sevinc Cəfərzadə arzularına çatmaq üçün çox çətinliklərə sinə gərib.

Uşaq olarkən futbol marağı Sevincə mane olmayıb. Amma yaşı artdıqca əsl mübarizəsi başlayıb: “Cinsiyyətimə görə qarşılaşdığım maneələr ən çətini idi. 12 yaşlı qıza elə alçaldıcı, təhqiramiz sözlər deyirdilər ki... Pis olurdum, amma bu sözlərin təsiri top sevgimlə keçirdi. Bir anlıq dayanırdım, sonra topumu götürüb gedirdim. İnsanların təpkisi valideynlərimi də incidirdi, onlar da məni dayandırmağa çalışırdılar”.




SƏHİFƏ 15-də



## VƏTƏNDAŞLAR SEVİNİR, SAHİBKARLAR İSƏ...

Azərbaycanda elektron ticarətin həcmi hər keçən gün artır. İnsanlar artıq öz ehtiyaclarını onlayn sifarişlərlə təmin edirlər. Bu yerli sahibkarları, mağaza sahiblərini çətin durumda qoyur. Ekspertlər hesab edirlər ki, sahibkarlar rəqabətdə uduzmamaq üçün bizneslərini yeni tendensiyaya uyğunlaşdırmalıdırlar.

SƏHİFƏ 7-də



## YENİDƏN NAĞD ÖDƏNİŞLƏRƏ QAYIDIRIQ?

2023-cü ilin yanvar-iyul aylarında əcnəbilər Azərbaycanda bank kartları vasitəsilə 1.2 milyard manatlıq əməliyyat aparıblar. Ötən ilin eyni dövründə isə bu rəqəm 1.3 milyard manat təşkil edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”na görə, bu da illik müqayisədə 7.7 faiz azdır.

SƏHİFƏ 14-də



## ƏMANƏTÇİLƏR ÜÇÜN ƏLA ŞANS

Əgər vətəndaşın bankda 50 min manat depoziti varsa, səkkiz faizlik depozitlə onun illik gəliri dörd min manat edir. Bu zaman 4 min manatdan 2400 manat çıxılır. Vətəndaş yerdə qalan 1600 manatdan 10 faiz vergi verməlidir.

SƏHİFƏ 12-də



## DƏRMAN BAZARI İLƏ BAĞLI YENİ QƏRAR İŞLƏMİR

Tarif Şurasının son qərarına əsasən, yuxarı hədd keçilməmək şərtilə dərmanları daha ucuz satmaq mümkündür. Lakin mövcud qərardan iki aya yaxın vaxt keçsə də, dərman bazarında hansısa ciddi dəyişiklik yoxdur.

SƏHİFƏ 10-da




## “QARABAĞ”IN NÖVBƏTİ TARİXİ ZƏFƏRİ

Avrokuboklardakı qürurumuz olan Qurban Qurbanovun komandası axır ki, Avropa Liqasının pley-offuna çıxmağı bacarıb. Komandamız bu uğuru Bakıda İsveç təmsilçisi “Hakken”ə qalib gəlməklə rəsmiləşdirib.

SƏHİFƏ 16-da



Paşinyanın cəza maşını

SƏHİFƏ 4-də



Aİ-dən Moldovaya zərbə

SƏHİFƏ 6-da



100 min əlyazma, 40 min eksponat

SƏHİFƏ 11-də



SOCAR və bp əməkdaşlıq edəcək

SƏHİFƏ 3-də



Nöqsanları göstərən “güzgü”

SƏHİFƏ 13-də



# BƏƏ İLƏ YENİ SƏNƏDLƏR İMZALANIB

Prezident İlham Əliyev dekabrın 15-də Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydini qəbul edib.

Dövlət başçısı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28-in Dubayda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

Məhəmməd Həssən Əl Suveydi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarını dövlət başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş edib.

Dövlət başçısı bu yaxınlarda Birləşmiş Ərəb Əmirliklərinə səfərini və səfər çərçivəsində bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşünü məmnunluqla xatırlayıb.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli dostluq münasibətlərinin bir çox sahədə uğurla inkişaf etdiyi bildirilib, müxtəlif səviyyələrdə təmasların əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət etdiyi qeyd olunub.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il Azərbaycanda keçirilməsi barədə qərar beynəlxalq aləmdə ölkəmizə göstərilən böyük etimadın və hörmətin nümunəsi kimi dəyərləndirilib.

Daha sonra Azərbaycan İnvestisiya Holdinqi və Əbu-Dabi İnkişaf Holdinq Şirkəti arasında Birgə sərmayə çərçivə razılaşması imzalanıb. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında data mərkəzləri layihələrində investisiya əməkdaşlığı haqqında Anlaşma Memorandumu imzalanıb.

# COP29-A HAZIRLIQ BAŞLADI



COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, tədbir çərçivəsində təqribən 70-80 min xarici qonağın ölkəmizə gəlişi gözlənilir.

Dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib. Dövlət başçısı müşavirədə çıxış edib.

Prezident bildirib ki, bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atıb, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul edib və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilib. “Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı”, - Prezident bildirib.

## “ONLAR DA BU VƏZİYYƏTLƏ BARIŞMAĞA MƏCBUR OLACAQLAR”

Dövlət başçısının sözlərinə görə, bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunub və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə edib: “Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi.

Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar”.

UNFCCC



## “10 MİNLƏRLƏ XARİCİ NÜMAYƏNDƏ ÖLKƏMİZƏ GƏLƏCƏK”

Prezident İlham Əliyev qeyd edib ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik: “Hətta bu il Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirmişik. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq”.

### DÜNYADA ƏN MÖTƏBƏR BEYNƏLXALQ TƏDBİRLƏRDƏN BİRİ

Dövlət başçısı bildirib ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır: “Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik. Bizim vaxtımız o qədər də çox deyil, 11 aydan az vaxtımız var. Ona görə mən hesab etdim ki, birinci müşavirəni öz sədrliyimlə keçirim, bütün lazımi tapşırıqları verim. Bu tapşırıqların yerinə yetirilməsi barədə müntəzəm olaraq mənə məlumat veriləcək.

Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək”.



# SOCAR VƏ BP BU SAHƏDƏ ƏMƏKDAŞLIQ EDƏCƏK

Əfqan İsayev: “Bu memoran-dumun imzalanması qarşılıqlı əlaqələrimizi daha da güc-ləndirmək öhdəliyimizi bir daha təsdiqləyir. Əminik ki, bu əməkdaşlıq metan qazının azaldılması və iqlimin qorunmasına əhəmiyyətli töhfələr verəcək”.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və bp Azərbaycanda metan emissiyalarının azaldılması üçün əməkdaşlıq edəcək. Bu barədə “Report” SOCAR”a istinadən xəbər verir.

Bildirilib ki, SOCAR və bp Azərbaycanın neft-qaz sektorunda metan səviyyələrinin azaldılmasına yönəlmiş yeni əməkdaşlıq təşəbbüsünü elan etmək üçün birgə tədbir keçirib. Qlobal “Metan Rəhbər Prinsipləri”ni (MGP) imzalamış bu iki şirkət Azərbaycanda metan emissiyalarının azaldılması səylərini irəli aparmaq məqsədilə öyrətmək və başqalarından öyrənmək, təcrübələri bölüşmək və birgə fəaliyyət üçün metan sahəsindəki öz təcrübə və biliklərini bir araya gətirərək sıx əməkdaşlıq edəcək.

Bundan iki həftə əvvəl, noyabrın 30-da “MGP” ölkələr səviyyəsində metan emissiyalarının azaldılmasını sürətləndirmək üçün özünün yeni Qlobal Metan Emissiyalarının Azaldılmasının Təşviqi (AGMR) təşəbbüsünü elan etmişdi. SOCAR və bp həmin təşəbbüs çərçivəsində birgə işləyərək Azərbaycanda enerji sektorunun tələblərinə cavab verən xüsusi yol xəritəsi hazırlamaq səylərinə dəstək məqsədilə əsas maraqlı tərəfləri, tərəfdaşları, tədqiqat institutlarını və hökumət rəhbərliyini bir araya gətirəcək.

Tədbirdə həmçinin SOCAR-la bp arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb. Bu sənəd çərçivəsində şirkətlər metan səviyyələrinin azaldılması sahəsində bilik və bacarıqların inkişafı, emissiyaların ölçülməsi, hesabatlılıq, yoxlama, texnologiyalar və texniki təcrübənin artırılması yönümündə birgə işləyəcək.

SOCAR-ın vitse-prezidenti Əfqan İsayev bildirib ki, SOCAR və bp-nin uzunmüddətli tərəfdaşlığı qlobal miqyasda davamlı, sərfəli və təhlükəsiz enerji təmin edilməsində əlamətdardır: “Bu memorandumun imzalanması qarşılıqlı əlaqələrimizi daha da gücləndirmək öhdəliyimizi bir daha təsdiqləyir. Əminik ki, bu əməkdaşlıq metan qazının azaldılması və iqlimin qorunmasına əhəmiyyətli töhfələr verəcək”.

Tədbirdə çıxış edən bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli isə bildirib ki, bu mühüm sənəd Azərbaycanda metan emissiyalarının əhəmiyyətli dərəcədə azaldılmasına yönəlmiş və bu sahədə səyləri birləşdirməyə imkan verəcək.



# İLHAM ƏLİYEVİN namizədliyi irəli sürüldü

Yeni Azərbaycan Partiyası tərəfindən İlham Əliyevin 2024-cü il fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar Prezident seçkilərinə namizədliyi irəli sürülüb. Partiyanın İdarə Heyətinin genişləndirilmiş iclasında bununla bağlı qərar yekdilliklə qəbul edilib.

Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin genişləndirilmiş iclası keçirilib. Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə YAP İdarə Heyətinin üzvləri, partiya üzvləri və digər şəxslər iştirak ediblər.



### “BU ZƏFƏRİN DAVAMI NÖVBƏTİ SEÇKİLƏRDƏN ASILIDIR”

YAP sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov toplantının gündəliyi barədə iştirakçılara ətraflı məlumat verib. O, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə möhtəşəm nailiyyətlər qazandığını bəyan edib: “Gələn il fevralın 7-nə növbədənkənar Prezident seçkiləri təyin edilib. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə möhtəşəm nailiyyətlər, tarixi zəfər qazanıb. Bu zəfərin davamı növbəti seçkilərdən asılıdır”.

### “XALQIMIZ BU GÜN GÖRÜLƏN İŞLƏRİN ŞAHİDİDİR”

YAP sədrinin müavini, Baş nazirin müavini Əli Əhmədov isə qeyd edib ki, İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilməlidir: “Bu gün qəbul edilən qərar təkcə YAP-ın prezidentliyə namizədinin irəli sürülməsi yox, Azərbaycan xalqının mövqeyi olacaq. İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilməlidir və qəbul ediləcək”.

Bu gün Azərbaycanın dünyanın ən hörmətli dövlətlərindən biri olduğunu vurğulayan Əli Əhmədov əlavə edib: “Azərbaycan İlham Əliyevin rəhbərliyi altında tarixi nailiyyətlər əldə edib. Prezident İlham Əliyevin fəaliyyəti haqqında saatlarla danışmaq olar. Azərbaycan xalqı bu gün görülən işlərin şahididir. Prezident İlham Əliyev 20 illik fəaliyyəti ilə Azərbaycan xalqının arzu-istəklərini yerinə yetirib”.

### YEKDİLLİKLƏ QƏBUL EDİLƏN QƏRAR

Çıxışlardan sonra partiya tərəfindən İlham Əliyevin 2024-cü il fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar Prezident seçkilərinə namizədliyi irəli sürülüb və bununla bağlı qərar yekdilliklə qəbul edilib. Daha sonra YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və YAP sədrinin müavini Əli Əhmədov partiyanın növbədənkənar Prezident seçkilərindəki səlahiyyətli nümayəndələri təyin edilib. Mərkəzi Aparatın rəhbərinin müavini Əhliman Tağıyev isə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunub. Partiyanın Seçki Qərargahının yaradılması barədə də qərar səsverməyə çıxarılaraq təsdiqlənib.

## DÜŞMƏNİ İKİ DƏFƏ KAPİTULYASİYAYA MƏCBUR EDƏN LİDER

Növbədənkənar Prezident seçkiləri ilə bağlı dövlət başçısı İlham Əliyevin namizədliyinin irəli sürülməsi ictimaiyyət nümayəndələri tərəfindən də alqışlanır.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov Azərtac-a açıqlamasında bildirib ki, siyasi suverenliyimizin möhkəmlənməsi, tam iqtisadi müstəqilliyə nail olunması, ərazi bütövlüyü, sərhəd toxunulmazlığı, beynəlxalq hüquqla tanınan bütün ərazilərimizdə konstitusiya quruluşunun bərqərar olunmasına məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə nail olunub: “Əsrlərdir məğlubiyyətlərə adət etmiş, itkilər verməkdə davam edən bir toplumdan, qalibiyyət anlayışını unutmuş bir xalqdan müzəffər topluma məhz Ali Baş Komandan İlham Əliyevin sayəsində çevrilə bilmişik. Bu xalq məhz Heydər Əliyev siyasi kursuna sadiq qalan Prezident İlham Əliyevin qətiyyəti ilə, 3 il ərzində düşməni 2 dəfə kapitulyasiyaya məcbur edən qalibə çevrilib. Məhz Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, həyata keçirilən iqtisadi və siyasi islahatların məntiqi nəticəsi olaraq, Azərbaycan tarixinin ən güclü dövrünə qədəm qoyub. Bu mənada, qədirbilən Azərbaycan xalqı və xalqın səs hüququna malik 700 min siyasi fəal vətəndaşının birləşdiyi bir partiyanın da növbədənkənar prezident seçkilərində iradəsinin məhz İlham Əliyevin üzərinə fokuslanması çox təbiidir”.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# PAŞİNYANIN RƏQİBLƏRİNƏ QARŞI CƏZA MAŞINI

Ermənistanda 44 günlük müharibədəki məğlubiyyətin səbəblərini araşdıran komissiya baş nazir Nikol Paşinyan üçün cəza maşını rolunu oynayır. Hakimiyyətə potensial təhlükə ehtiva edən siyasilər, hərbçilər burada dindirilir, ram olunmayanlar barədə cinayət işi açılır.



FUAD ABASOĞLU

Ermənistan parlamenti tərəfindən qurulan və 44 günlük müharibədəki məğlubiyyətin səbəblərini araşdıran komissiya öz funksiyasını yerinə yetirmək əvəzinə baş nazir üçün cəza maşını rolunu oynayır. Nikol Paşinyanın gizli əmri ilə hakimiyyətinə potensial təhlükə ehtiva edən siyasilər, əsasən də hərbçilər komissiyada dindirilir, müəyyən şəxslər barədə cinayət işi açılır. Bu yaxınlarda isə sözügedən parlament komissiyasının Ermənistan Konstitusiyasına zidd fəaliyyət göstərməsi üzə çıxıb. Erməni müxalifəti ciddi-cəhdlə komissiya sədri Andranik Koçəryandan hesabat verməsini tələb edib.

### HƏBSƏ GÖNDƏRİLƏN HƏRBÇİLƏR

Andranik Koçəryan eyni zamanda Ermənistan Milli Assambleyasının müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının sədri vəzifəsini icra edir. Paşinyana xüsusi yaxınlığı ilə seçilən və hakim partiyanın ruporlarından olan deputat bu posta təsadüfən seçilməyib. Acı məğlubiyyətlə başa çatan 2020-ci il müharibəsindən sonra orduda baş verən narazılıqlar, hakimiyyəti devirmək üçün gizli sövdələşmələr "Mülki müqavilə"nin nəzərindən qaça bilməzdi. Bu səbəbdən də baş nazirin gizli göstərişi ilə 44 günlük müharibənin şəraitini araşdıran komissiya çevrilişə cəhd edəcək yüksək rütbəli hərbçiləri ard-arda həbsə göndərməyə başlayıb. Onların arasında general və polkovniklərin də sayı az deyil.

### QARABAĞ ERMƏNİLƏRİNİ CƏZALANDIRMAQ PLANI

Qarabağ ermənilərinə, xüsusən də separatçı rejimin tör-töküntülərinə qarşı Ermənistanda ögey münasibətin olması sirr deyil. Samvel Şahramanyan və qondarma rejimin "deputat"ları isə Nikol Paşinyan üçün baş ağrısına çevrilmək üzrə idi. Bu şəxslər Qarabağ klanını dirçəltmək üçün fəaliyyətə keçiblər. Şahramanyanın gizli şəkildə Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanla görüşməsi barədə məlumatlar da var. Bu görüş hakim partiyanın səbir kasasının daşmasına səbəb olub. Çünki görüş hakimiyyətə qarşı gizli ittifaq kimi şərh edilib. Bu görüşdən sonra separatçı rejimin "son lideri" parlament komissiyasına dəvət edilib. Bir neçə saat davam edən sorğu-sual barədə mətbuata xəbər verilməsə də, siyasi kulislərdə Şahramanyanın cəzalandırılacağı barədə söhbətlər dolaşmağa başlayıb.

### PAŞİNYANIN SAMVEL KARTI

Qarabağ separatçılarından olan Samvel Babayan da baş nazirə yaxınlığı ilə tanınır. Məhz Şahramanyanın dindirilməsindən sonra eks-"Təhlükəsizlik Şurası sədri"nin də sorğu-sual üçün dəvət edilməsi maraqlı məqamları üzə çıxarıb. Üç saat davam edən dindirilmədən sonra Samvel mətbuata qalmaqallı açıqlamalar verərək Şahramanyanın "torbasını tikib". Paşinyanın Babayan vasitəsilə müxtəlif tezisləri və pərdəarxası söhbətləri ortaya atması ilk dəfə deyil. Buna görə də erməni KİV "eks-katib"in açıqlamalarını gen-bol tirajlayıb. Bu açıqlamalar isə çox ciddi məqamları üzə çıxarıb.



## BABAYAN ŞAHRAMANYANA QARŞI

Məsələn, Babayanın açıqlamalarından məlum olub ki, separatçı "lider" bir müddət əvvəl Daşnaksütyunun sabiq prezidentlər vasitəsilə Ermənistanda hakimiyyət dəyişikliyini reallaşdırmaq üçün qurulan planın bir hissəsi olub. 1999-cu ilin 27 noyabr tarixində erməni parlamentinə silahlı hücumun arxasında sözügedən partiyanın durduğunu nəzərə alsaq, söhbətin hansı planlardan və rıçaqlardan getdiyini təsəvvür edə bilərik. Bu ittifaqın hansı üsullar vasitəsilə hakimiyyəti devirə biləcəyi barədə hakim partiyada kifayət qədər məlumat var. Bu səbəbdən də yaxın vaxtlarda Şahramanyan və Daşnaksütyuna qarşı Paşinyanın "səlib yürüşü"nün başlama ehtimalı yüksəkdir.



## SEPARATÇI "DEPUTATLAR"IN GİZLİ GÖRÜŞÜ

Bir neçə aydır İrəvan küçələrinin enini-uzununu ölçən qondarma rejimin "deputatlar"ı da fəaliyyətə keçmək qərarına gəliblər. Onlar qısa müddət ərzində iclas keçirmək, qərarlar qəbul etmək istəyiblər. Amma parlament komissiyasında dindirildikdən sonra Şahramanyan onlarla görüşərək, hazırkı məqamda belə bir addımın lazımsız olduğunu bildirib. Birincisi, hakim elitanın bu işə kəskin reaksiya verəcəyini təsdiq edən faktlar var. Həm prezident, həm parlamentin sədri, həm də bir sıra deputatlar separatçı rejimin istənilən fəaliyyətinə qarşı müxtəlif açıqlamalar veriblər. İkincisi, ola bilər ki, Daşnaksütyun və Sarkisyanla görüşdə alınan qərarların hər hansı formada icra olunacağına "deputatlar" mane ola bilərlər.



Bununla belə, qondarma rejimin tör-töküntüləri Şahramanyanın sözünü yerə salaraq gizli iclas keçirməyə nail olublar. Amma necə deyərlər, özləri çalıb, özləri də oynayıblar.

### CƏZA TƏDBİRLƏRİ YOLDADIR

Təbii ki, separatizm qalıntılarının bu cür "fəaliyyəti" diqqətdən kənarda qalmayıb. Hazırda Azərbaycanla birbaşa dialoq nəticəsində 32 erməni əsirin Ermənistana qaytarılması baş naziri xeyli ürəkləndirib. Artıq hakim partiyanın əksər üzvləri açıqlama verərək, tezliklə sülh müqaviləsinin imzalanacağına inandıqlarını qeyd ediblər. Ermənistan parlamentinin maliyyə, kredit və büdcə məsələləri üzrə komissiyasının rəhbəri, deputat Gevorq Papoyan məsələ ilə bağlı "Qarabağı məhv etdilər, indi növbə Ermənistandadır? Artıq bəsdir!" fikrini səsləndirib. Bu isə o deməkdir ki, qondarma rejimin "eks"lərinə İrəvanda qol-qanad açmağa heç bir halda icazə verilməyəcək və tezliklə onların cəzalandırılmasının şahidi olacağıq.

# SÜLHƏ VƏ ƏSGƏRƏ VERİLƏN DƏYƏR

Hüseyn Axundov və Aqşin Bəbirovun azad olunması faktı bir daha göstərir ki, Silahlı Qüvvələrimizin hər bir üzvünün taleyi, təhlükəsizliyi Prezident İlham Əliyevin xüsusi diqqətindədir. Ali Baş Komandan, Azərbaycan dövləti üçün hər bir vətəndaşının həyatı önəmlidir.



Foto: Report


AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Dekabrın 13-də Qazax rayonunda Azərbaycan ilə Ermənistan arasında hərbçilərin qarşılıqlı surətdə azad edilməsi prosesi baş tutub. Proses zamanı Ermənistan tərəfindən Azərbaycanın 2 hərbi qulluqçusu - Hüseyn Axundov və Aqşin Bəbirov azad olunub. Azərbaycan tərəfi isə erməniəsilli 32 şəxsi qarşı tərəfə təhvil verib.

### HUMANİZM PRİNSİPLƏRİNDƏN QAYNAQLANAN ADDIM

Əsirlərin mübadiləsi ilə bağlı prosesi bir neçə istiqamətdə dəyərləndirmək mümkündür. İlk olaraq onu vurğulayaq ki, aylardır Ermənistanda qanunsuz olaraq saxlanılan Azərbaycan Ordusunun əsgərlərinin Vətənə, ailələrinə dönüşünü təmin edən proses ölkəmizin siyasi rəhbərliyinin, xüsusilə də Ali Baş Komandanın gücünün, humanizm prinsiplərinə verdiyi dəyərin göstəricisidir. Say nisbətinə baxsaq, iki hərbçimizə qarşı 32 erməni hərbi qulluqçunun təhvil verilməsi Azərbaycan Ordusunda Ali Baş Komandanına olan inam və etimadı daha da gücləndirib. Bu fakt bir daha göstərir ki, Silahlı Qüvvələrimizin hər bir üzvünün taleyi, təhlükəsizliyi Prezident İlham Əliyevin xüsusi diqqətindədir. Ali Baş Komandan, Azərbaycan dövləti üçün hər bir vətəndaşının həyatı önəmlidir. Hər hansı təhdid yarandığı halda dövlət olaraq bütün zəruri addımlar atılır.

### TERRORÇULARA MÜNASİBƏT DƏYİŞMƏZDİR

Digər tərəfdən, bütün dünya Azərbaycanın bölgədə sülh və sabitliyə, qarşılıqlı etimadın yaradılmasına real yanaşmasının şahidi oldu. Ölkəmizi sülh prosesini pozmaqda, Ermənistana qarşı təhdid yaratmaqda ittiham edənlər fakt qarşısında qalıb. İndi bu qərarın bölgədə sülhə töhfə verən addım olduğunu etiraf etmək, hətta onu alqışlamaq məcburiyyətində qalıblar. Azərbaycan xalqı başda olmaqla, bütün dünya onun da şahidi oldu ki, dövlətimizin ədalət sisteminin tərəzisində humanizm dəyərləri ilə yanaşı, beynəlxalq başəri və xüsusilə ağır hərbi cinayətlər törədənlər öz layiqli cəzalarını alırlar. Təhvil verilənlər arasında Arayik Arutunyan, Bako Saakyan, Ruben Vardanyan və digər bu kimi qatı canilərin adları yoxdur. Hökumətimizin xalqımıza və dövlətimizə qarşı konkret cinayət törədənlərə, terror aktlarına əl atanlara münasibəti qətidir və dəyişməzdir.

### İRƏVANIN MANEVR İMKANLARI SIFIRLANIR

Mövcud reallığı şərtləndirən, Ermənistanı hərbçilərimizi geri təhvil verməyə məcbur edən vəziyyətin yaranması da birbaşa Azərbaycanın ali rəhbərliyinin yürütdüyü siyasətin nəticəsidir. Bu reallıq Silahlı Qüvvələrimizin hərbi gücü, siyasi rəhbərliyin dəmir iradəsi və qətiyyəti, diplomatik həmlələri nəticəsində formalaşıb. Çünki 30 illik işğal dövründə Ermənistan tərəfinin hər zaman sülhdən necə qaçdığını, müxtəlif təxribatlarla məsuliyyətdən necə yayındığının şahidi olmuşuq. Lakin son üç ildə atılan addımlar artıq İrəvanın məlum istiqamətdə manevr imkanlarını sıfırlayıb. Ermənistan hətta anti-Azərbaycan qüvvələrin belə alqışlamaq məcburiyyətində qaldığı Bakının bu çağırışlarına adekvat cavab vermək məcburiyyətindədir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

## ERMƏNİSTAN TARİXİ FÜRSƏTİ NECƏ DƏYƏRLƏNDİRƏCƏK?







Fotolar: Sabir Məmmədov /Global Media Group

Hərbi əsirlərin mübadiləsi prosesini özünəməxsus edən digər mühüm bir məqam isə bu məsələnin hansısa vasitəçilərin iştirakı ilə yox, məhz ikitərəfli razılaşmalar əsasında həllini tapmasıdır. Azərbaycan bir daha nümayiş etdirdi ki, İrəvanla Bakı arasında aparılan danışıqlarda, qarşılıqlı etimadın yaradılması, münasibətlərin normallaşdırılması prosesində hər hansı üçüncü vasitəçiyə ehtiyac yoxdur. Məhz iki tərəfin birgə səyləri ilə Cənubi Qafqazda sülhə, sabitliyə və əməkdaşlığa nail olmaq mümkündür. Bunun ən bariz nümunələrindən biri elə dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində humanizm prinsipinə sadiqlik ruhunda, xoş niyyət göstəricisi olaraq iki ölkə arasında qarşılıqlı etimad tədbirlərinə dair əldə edilən razılıqdır. Xatırladaq ki, həmin anlaşmada tərəflər sülhə nail olmaq üçün tarixi fürsətin yaranması tezisi ilə razılaşırlar. Bunu birgə şəkildə etiraf edirlər. Xüsusilə vurğulanmalıdır ki, bu fürsəti nə hansısa vasitəçi, nə də İrəvan yaradıb. Bu, Azərbaycanın ali siyasi rəhbərliyinin iradəsinin təzahürüdür. Artıq İrəvanda da "Bakı sülh danışıqlarını pozur, qarşılıqlı etimad tədbirlərindən yayınır" tezislərindən əl çəkmək məcburiyyətində qalıblar. Rəsmi olaraq Azərbaycanın ikitərəfli danışıqlar formatına müsbət yanaşdığı və bu prosesdə sülhə doğru əməli addımlar atdığını etiraf edirlər. Prosesin müsbət məcrada və tezliklə yekunlaşması üçün təbii ki, ən mühüm şərt İrəvanın üzərinə düşən öhdəlikləri yerinə yetirməsi, Bakının gözləntilərini tam olaraq doğrultması və kənar qüvvələrin sülh danışıqlarına maneə yaratmaq cəhdlərinə fürsət yaratmamasından asılıdır. Ermənistanın siyasi rəhbərliyinin bu tarixi fürsəti necə dəyərləndirəcəyi bölgədə gələcək siyasi və hərbi proseslərin axarını müəyyənləşdirəcək başlıca faktordur.



# AVROPA İTTİFAQINDAN Moldovaya zərbə

Avropa İttifaqı gələn il verəcəyi qrantların miqdarını təxminən üç dəfə azaldır. Bunun əvəzində büdcə kəsirinin veriləcək kreditlər hesabına təmin edilməsi təklif edilir. Bu isə onsuz da çətin durumda olan ölkənin maliyyə yükünü artırır.



AZƏR NURİYEV

Son 20 ildə Türkiyə Avropa İttifaqına üzvlük üçün real addımlar atsa da, qapılar Ankaranın üzünə açılmayıb. Eyni siyasət indi də postsovet ölkələrinə qarşı həyata keçirilir. Gürcüstan, Ukrayna, Moldovanın ittifaqa üzvlüyü ilə bağlı vədlər verilir, amma nəticə yoxdur. Düzdür, Brüssel bu ölkələrə təsəlli olaraq vizasız rejim tətbiq edib. Moldova, Gürcüstan və Ukrayna birmənalı Qərb siyasəti nəticəsində torpaqlarının bir hissəsindən məhrum olsa da, Brüssel bu ölkələri vizasız rejimin ləğvinin mümkünlüyü ilə şantaj etməkdən də çəkinmir. Daha çox Moldovaya problemlər yaradılır.

### MOLDOVAYA QƏRB YARDIMLARI AZALIR

Yayılan məlumatlara görə, Qərb Moldovaya yardımlarını kəsmək qərarına gəlib. Gələn il xaricdən ölkəyə daxil olan qrantların həcmi təxminən üç dəfə azalacaq. Eyni zamanda, büdcə kəsirinin təmin olunması üçün alınan kreditlərin payı artacaq. Bütün bunlar Moldova parlamentinin birinci oxunuşda təsdiq etdiyi gələn ilin dövlət büdcəsi layihəsində əksini tapıb.

Büdcə gəlirlərinin 1,3% artaraq 66,6 milyard ley (4 mlrd. avro), xərclərinin isə 2,2% azalaraq 82,2 milyard ley (5 mlrd. avroya yaxın) olacağı gözlənilir. Büdcə kəsiri 15 milyard leyi ötür. Bunun 55%-nin kreditlər, 15%-nin isə qrantlar hesabına ödənilməsi planlaşdırılır. Ekspertlər buna səbəb kimi gələn il xarici tərəfdaşlardan qrantların həcminin təxminən 3 dəfə - 6,8 milyard leydən 2,4 milyard leyə qədər azalmasını vurğulayırlar. Büdcənin xaricdən daxilolmalarının ümumi məbləği 32% azalacaq (25 milyard leydən 17 milyard leyə qədər) və orada kredit vəsaitlərinin payı açıq şəkildə artır ki, bu da ölkənin maliyyə yükünü artırır.

Moldovanın keçmiş baş naziri, Liberal Demokrat Partiyasının lideri Vlad Filat bununla bağlı sosial şəbəkədə yazıb ki, namizəd dövlət statusunun verilməsi Moldovanın Aİ-dən aldığı son "hədiyyə" olub.



İqor Muntyanu

## TARİX YAXINLAŞDIQCA TƏRƏDDÜDLƏR DƏ ARTIR

Kişineu mediası parlamentə təqdim olunan gələn il üçün dövlət büdcəsi layihəsi fonunda ölkənin perspektivlərini müzakirə edir.

"Görünür, bizim müttəfiqlərimiz Moldova büdcəsinə maliyyə axınını qurutmağa başlayıblar və bizi, necə deyərlər, öz pulumuzla yaşamağa cəhd etməyə dəvət edirlər", - deyə "Moldavskie Vedomosti" yazır.

Kişineu Aİ ilə danışıqlara başlanılmasının ona Avropa fondlarına çıxış imkanı verəcəyinə və böyük büdcə kəsirini kompensasiya etməyin mümkün olacağına inanırdı. Amma Aİ-nin həlledici sammitinin tarixi yaxınlaşdıqca daha çox tərəddüdlü şərhlər ortaya çıxır. Hətta Moldovanın baş naziri Dorin Resin Moldova və Ukrayna ilə danışıqların başlanmasının gələn ilə qədər təxirə salınmasının mümkünlüyünü də etiraf edib. Yerli media yazır ki, xarici maliyyə məhdudiyyətləri ilə birlikdə bu, hakim sinif üçün həyəcan siqnalıdır. Prezident Mayya Sandunun Avropaya inteqrasiyanın, Aİ-yə daxil olmağın tək prinsiplər və dəyərlər deyil, həm də pulla bağlı olduğu barədə sözlərini də yaddan çıxarmaq olmaz. "Avropa İttifaqından danışanda məhz bundan danışırıq. Yollara, kanalizasiyaya, suya, məktəbə, uşaq bağçasına və camaatın digər ehtiyaclarına gedən pullar haqqında. Anlamaq lazımdır ki, Avropanın maliyyə yardımı olmasaydı, bu nailiyyətlər mümkün olmazdı", - deyə prezident bildirib.



Mayya Sandu

## HÖKUMƏT XƏRCLƏRİ ARTIRMAQDA İTTİHAM EDİLİR

Birlik və Rifah Koalisiyası Partiyasının (KUB) nümayəndələri hökuməti dövlət xərclərini artırmaqda ittiham ediblər. Onlar qeyd ediblər ki, 2021-ci illə müqayisədə mövcud nazirliklərdə çalışan işçilərin əməkhaqqı xərcləri 200-300 dəfə artıb. "Keçmiş İqtisadiyyat və İnfrastruktur Nazirliyinin üç ayrı-ayrı nazirliyində işçilərin sayı 82% artıb. İndi iki nazirliyə bölünən keçmiş Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları 79% artıb. Bu, iqtisadiyyatın gətirdiyi gəlirə uyğun gəlmir", - deyə partiyanın sədri İqor Muntyanu bildirib. O əlavə edib ki, gecə kəpənəkləri kimi yaranan qurum və təşkilatlar, hazırkı hakim partiyanın sifarişçi təşkilatlarının xərcləri müzakirə edilməlidir. "Mən təbii ki, "Patriot"u (İnformasiyanın Qorunması və Təbliğatla Mübarizə üzrə Milli Mərkəzi) nəzərdə tuturam. Əvvəlcə "Patriot"un xarici mənbələrdən maliyyələşdiriləcəyi deyilirdi, sonda onun xərclərinin 2024-cü ilin büdcəsinə daxil olduğunu görürük", - deyə İqor Muntyanu bildirib.

### BÜDCƏNİ NECƏ DOLDURMALI?

Bu arada baş nazirin müavini, iqtisadi inkişaf və rəqəmsallaşma naziri Dumitru Alaiba vətəndaşlara büdcəni doldurmağın yeni üsulunu təklif edib: "Hər kəs Moldovada istehsal olunan malları alınmasına ayda 200 ley xərcləsə, biz iqtisadiyyat üçün əlavə 6 milyard ley toplaya bilərik". Amma onun bu təklifi isti qarşılanmayıb. Tanınmış jurnalist Dmitri Çubaşenko özünün "Telegram" kanalında yazıb ki, nazirdən bu məbləğin ödənilməsi üçün istifadə oluna biləcək xüsusi yerli mal və xidmətlərin siyahısını almaq istərdi: "Moldovada bütün banklar əcnəbilərə məxsusdur. Mobil operatorlar xaricilərin əlindədir. Enerji, yanacaqdoldurma məntəqələri xarici kapitaldır. Sement fransız, şəkər - alman və polyakların əlindədir. Pərakəndə satış şəbəkələrinin əksəriyyəti xaricidir. "Made in Moldova" brendi ilə bir çox mal və xidmətlər üçün ödəniş etsəniz belə, yenə də xarici şirkətlərin gəlirlərini artırırsınız".

Beləliklə, Moldova ilə bağlı mürəkkəb vəziyyət yaranıb. Aİ böyük ehtimalla bu sammitində də Moldova və digər ölkələrlə bağlı yalnız müəyyən proqramları reallaşdıracaq. Daimi üzvlük prosesi isə hələ uzun çəkəcək.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# Vətəndaşlar SEVİNİR, sahibkarlar isə...




Azərbaycanda elektron ticarətin həcmi hər keçən gün artır. Bu yerli sahibkarları, mağaza sahiblərini çətin durumda qoyur. Ekspertlər hesab edirlər ki, sahibkarlar rəqabətdə uduzmamaq üçün bizneslərini yeni tendensiyaya uyğunlaşdırmalıdırlar.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

"Trendyol" ötən həftə Azərbaycandan 1.3 milyon istifadəçisinin olması ilə bağlı açıqlama verdi. Bu, Azərbaycanda elektron ticarətin formalaşmasını göstərən mühüm rəqəmdir. Lakin bu inkişaf da zərərsiz ötüşmür. Alıcılar xoşbəxtdir, çünki vətəndaşlar ay ərzində 300 dollar limiti keçməməklə ucuz qiymətə məhsullar alır, sahibkarların əksəriyyəti isə işçiyə necə maaş verəcəyi barədə düşünür. Yəni bir tərəf ziyan çəkir, hətta mağazalar bağlanır, digər tərəf inkişaf edir. Onlayn ticarətin inkişafı Azərbaycanda pərakəndə satışla məşğul olan sahibkara ciddi problemlər yaradıb. Bəs onlayn ticarətin geniş vüsət almasının müsbət və mənfi tərəfləri nədir? Yerli sahibkarlar rəqabətə davam gətirmək üçün nə etməlidirlər?

### YƏNİ RƏQABƏTDƏ UDUZMAMAQ ÜÇÜN...

Millət vəkili Vüqar Bayramov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, sahibkarlar işlərini yeni çağırışlara uyğun qurmalıdırlar: "Elektron ticarət və onlayn satış xidmətlərinin göstərilməsi bütün dünyada qlobal tendensiyadır. Tək Azərbaycanda deyil, əksər ölkələrdə bu vəziyyət müşahidə edilir. Sahibkarların bu çağırışlara hazır olması vacibdir. Şəxsi istehlak üçün rüsum ödəmədən xaricdən aylıq 300 dolláradək sifariş məbləğinin iki dəfə azaldılacağı ilə bağlı məlumatlar yayılır. Mən bu fikirlərlə razı deyiləm. Sahibkarların rentabelliyi vətəndaşlar üçün müəyyənləşdirilən gömrük limitinin azaldılması hesabına deyil, öz xərclərini minimumlaşdırmaq və rəqabətə hazır olmaq yolu ilə gücləndirilməlidir. Yəni rəqabətdə uduzmamaq üçün öz bizneslərini hazırkı tendensiyaya uyğunlaşdırmalıdırlar".

### SAHİBKARLAR ONLAYN SATIŞLARA ÜSTÜNLÜK VERMƏLİDİR?

Millət vəkili düşünür ki, hazırda sahibkar tərəfindən satışların əhəmiyyətli hissəsinin onlayn və stoklar vasitəsilə həyata keçirilməsi məqsədəuyğundur: "Eyni zamanda, istehsalla məşğul olan şirkətlərin onlayn satış şəbəkələri ilə birbaşa əlaqələrinin yaradılması və əmək-daşlığın gücləndirilməsinə ehtiyac var. Ümumiyyətlə, qlobal trend göstərir ki, növbəti illərdə də onlayn satışlar və elektron ticarətin dövriyyəsində artımlar olacaq. Sahibkarlar bütövlükdə xərclərin minimallaşdırılması hesabına rentabelliyi artırmalı, mənfəətin yüksəldilməsinə nail olmalı və bu çağırışlara uyğunlaşmağa çalışmalıdırlar".




Elxan Mərdanlı

Foto: Sabir Məmmədov/Global Media Group

### İŞ YERLƏRİ AZALIR, İŞSİZLƏR ARTIR

Azərbaycan Pərakəndə Geyim İdxalçıları Assosiasiyası (AFRA) İdarə Heyətinin üzvü, sahibkar Elxan Mərdanlı ölkədə onlayn ticarətin inkişaf etməsi fikri ilə razı deyil: "Azərbaycanda onlayn ticarətin inkişaf etməsi kimi ifadələr gündəmdədir, amma yanlışdır. Çünki ölkə hüdudları çərçivəsində fəaliyyət göstərən onlayn mağazalar ölkə xaricinə demək olar ki, məhsul göndərmirlər. Azərbaycan vətəndaşı ölkədə olan və ehtiyacını qarşılamağa qadir məhsulları digər ölkələrin onlayn ticarət platformalarından ucuz taparaq, alış-veriş edir. Nəticədə yerli sahibkarlar satış olmadığı üçün müştəri itirir, əməkhaqqı verə bilmirlər. İş yerləri azalır, işsizlər artır".

Təbii ki, alıcılar məhsulu ucuz qiymətə tapdıqları üçün onlayn ticarətə üstünlük verirlər. Həmçinin onlar Azərbaycanda eyni məhsulun baha olmasından şikayətlənirlər.

## "TİCARƏT MƏRKƏZLƏRİNDƏ İCARƏ HAQLARI..."




Sahibkar vurğulayır ki, ölkədə icarə qiymətlərinin yüksək olması da bahalaşmanın əsas səbəblərindəndir: "Ticarət mərkəzlərində icarə haqları 15-22 min manatdan başlayır. Sahibkar baha satmalıdır ki, icarəsini ödəyə bilsin. Sahibkar ayın ilk 10 gününü icarə, növbəti 10 gündə əmək haqqı üçün işləyir. Ayın sonuna da çalışır ki, mayasını çıxarsın, növbəti ayda mal alıb sata bilsin".

### GÜZƏŞTLƏRİN EDİLMƏSİ VACİBDİR

Məsələnin həll yoluna gəldikdə isə iş adamı düşünür ki, problemin qarşısını almaq üçün qanunvericilik sahibkara güzəştlər etməlidir: "Sahibkar məsələni yumşaltmaq üçün hansısa nüansdan yararlana bilmir. Mağazaların bağlanması tendensiyası artır. Bunun qarşısını almağın yeganə yolu nəyisə qadağan etmək, yaxud limiti azaltmaq deyil. Çıxış yolu yerli sahibkarların rəqabət qabiliy-yətlərini güclən-dirmək, bunun üçün onlara müəy-yən gü-zəştlər et-mək-dir".

## AZƏRBAYCANDA GEYİMLƏR NİYƏ BAHADIR?



Elxan Mərdanlı deyir ki, bunun səbəbi mövcud qanunvericilikdəki boşluqlardır. Mütəxəssisin sözlərinə görə, əgər qanunvericilik sahibkar yönümlü olsa idi, eyni mallar Azərbaycanda da münasib qiymətə satılacaqdı: "Bizdə sahibkar ölkəyə məhsul idxal edən zaman 15 faiz gömrük rüsumu ödəyir. Bununla yanaşı, sahibkardan öncədən Əlavə Dəyər Vergisi (ƏDV) alınır. Dövlət özünü qanunvericiliyin verdiyi imkan daxilində qısa müddətdə sığortalayır ki, sahibkar məhsulu gətirər satar, amma ƏDV-ni ödəməz. Sahibkardan ƏDV-si öncədən alınır. Bu, sahibkarı qorumaq deyil. Əslində sahibkarın qorunması lazımdır ki, yekunda mənfəət vergisi ödəyə bilsin. Bununla yanaşı, elektron xidməthaqqı, gömrük yığımı var. Qanunvericilikdə ikiqat xidməthaqqı deyilən bir nüans da var. Əlavə olaraq, sahibkar məhsul idxal edən zaman bəyannamənin pulunu bir az gec ödəsə, o zaman dəbbə pulu ödəməyə məcbur qalır. Ümumi hesabladıqda, təxminən 42 faizə qədər gömrük rüsumu yaranır. Əgər 34 min manatlıq məhsul idxal edəcəksənsə, üzərinə 14 min manatlıq digər xərcləri gələndə 48 min manat pul edir. Yol pulunu da nəzərə aldıqda 50 minə yaxın xərcdir. Yəni Türkiyədə mayası 34 min manata olan bir məhsul Azərbaycanda 50 min manata başa gəlir. Türkiyədəki sahibkar 34 minin üzərindən, Azərbaycandakı isə 50 min üzərindən satış qiyməti hesablayır. Qiymətin baha olmasının səbəbi budur".

SAĞLAMLIQ Kaspi 16 DEKABR ŞƏNBƏ 2023 9

STATİSTİKAYA ƏSASƏN, ÖLKƏMİZDƏ ANİ ÖLÜM HALLARININ 68 FAİZİ ÜRƏK-DAMAR XƏSTƏLİKLƏRİ SƏBƏBİLƏ BAŞ VERİR

# ÜRƏK XƏSTƏLİKLƏRİNİ CAVANLAŞDIRAN SƏBƏBLƏR






Aparılan araşdırmalar göstərir ki, dünyada ürək xəstəlikləri təxminən 15 il cavanlaşıb. Ürək, qan-damar sistemi xəstəliklərindən baş verən ölüm hallarına görə, ölkəmiz Tacikistandan sonra dünyada ikinci yerdədir.

Ürək xəstəliklərindən qəfil vəfat edənlərin sayı artmaqdadır. Son zamanlar isə cavanların da bu xəstəlikdən vəfat etməsi halına rast gəlirik. Bu günlərdə qısa zaman kəsiyində üç tələbənin ürəktutmasından vəfat etməsi faktı dediklərimizi bir daha təsdiqləyir.

**ÜRƏYİMİZ BİZDƏN NİYƏ KÜSÜR?**

Qeyd edək ki, ürək-damar sistemi xəstəliklərinin ilkin əlamətləri kəskin şəkildə sinə və kürək nahiyələrində ağrıların olmasıdır.

Ürək çatışmazlığı iki cür - kəskin və xroniki gedişata malikdir. Mütəxəssislər deyirlər ki, bu xəstəliyinin çoxalmasının səbəbləri - insanların əksəriyyətinin daha çox passiv həyat, oturaq iş rejiminə üstünlük verməsi, "fastfood" və stressdir.

**ÜRƏK XƏSTƏLİKLƏRİ 15 İL CAVANLAŞIB**

Aparılan araşdırmalara göstərir ki, dünyada ürək xəstəlikləri təxminən 15 il cavanlaşıb. "Worldlifeexpectancy" məlumat verir ki, ürək, qan-damar sistemi xəstəliklərindən baş verən ölüm hallarına görə, ölkəmiz Tacikistandan sonra dünyada ikinci yerdədir. Azərbaycanın 183 ölkə sırasında reytinq dərəcəsi 388,41 kimi qeyd edilib. Statistikaya əsasən, ölkədə ani ölüm hallarının 68 faizi ürək-damar xəstəlikləri səbəbilə baş verir.

**QAZANILAN İNKİŞAF YAVAŞLAYIR**

Həkim-kardioloq Nabil Seyidov "Kaspi" qəzetinə açıqlamasında bildirib ki, ürək-damar xəstəliklərinin müalicəsində qazanılan inkişaf yavaşlayır: "Son 30 ildə əldə olunan uğurlu nəticələrdə müəyyən mənada "yerində sayma" müşahidə edilir. Zəruri addımlar atılmasa, yaxın zamanlarda geriləmə artıq qaçılmaz olacaq. Hər il yarım milyarddan çox insan bu xəstəliyin təsirinə məruz qalır. 2021-ci ildəki statistikanı götürsək, ürək-damar xəstəliklərindən ölənlərin sayı 20,5 milyonu ötüb.

Vaxtından əvvəl infarkt və insultlarda fəsadların qarşısını almaq mümkündür. Son 50 ildə ürək-damar xəstəliklərinin öyrənilməsi, əldə edilən nailiyyətlər nəticəsində mövcud resurslar, alətlər və müdaxilə imkanları var. Amma bir çox icmalarda diaqnostika, profilaktika və müxtəlif vasitələrə çıxışın məhdud olması ürək-damar xəstəliklərinin müalicəsində irəliləyişlərin əldə olunmasına imkan vermir. Bu xəstəlik səbəbindən baş verən hər beş ölümdən dördü aşağı və orta gəlirli ölkələrdə yaşanır. Yüksək gəlirli ölkələrdə ürək-damar sağlamlığında irəliləyiş getdikcə artır. Tütün və alkoqollu içkilərdən istifadənin daha çox yayılması, daha çox duz istehlakı, habelə havanın çirklənməsi, fiziki aktivliyin azalması ürək-damar xəstəlikləri səbəbindən ölüm hallarını artırmış olur".

> *"Miokard infarktı artıq yalnız ahıl, orta yaşlı insanların xəstəliyi deyil. Gənclər ürək-damar xəstəlikləri, xüsusilə də infarkt və insult barədə məlumatsızdırlar."*




**ÖLÜMLƏRİN ƏSAS SƏBƏBİ**

Həkim deyir ki, onilliklər ərzində dünyada ürək-damar xəstəlikləri ölümlərin əsas səbəbi olub: "Müqayisə üçün qeyd edim ki, 1990-cı ildə ürək-damar xəstəliklərindən 12.1 mln insan ölmüşdüsə, 2021-ci ildə bu rəqəm artıq 20,5 milyon olub. Dünyanın 146 ölkəsində kişilər arasında və 98 ölkəsində qadınlar arasında vaxtsız və ya vaxtından əvvəl baş verən ölümlərin əsas səbəbi ürəyin işemik xəstəliyidir.

Son 30 ildə, ümumilikdə, ürək-damar xəstəliklərindən ölüm halları artsa da, qlobal miqyasda rəqəmlər yaşa uyğun standartlaşdırıldıqda, ölüm hallarının azalmasını görürük. Əlbəttə ki, azalma daha çox və daha sürətli tərzdə məhz yüksək gəlirli ölkələrin payına düşür".

**ÖLKƏLƏR ÜÇÜN CİDDİ PROBLEM**

N.Seyidovun sözlərinə görə vurğulayıb ki, artan sübutlar göstərir ki, gənc insanlarda artan ürək xəstəliyinin səbəbi pisləşən həyat tərzi vərdişləri, yəni qeyri-sağlam pəhriz və fiziki aktivliyin olmamasıdır: "Bəzi araşdırmalar göstərir ki, COVID-19 infeksiyası son bir neçə ildə əlavə təhrikedici faktora çevrilib. Bəlkə də ən narahatedici tendensiya odur ki, yaşlı insanlar arasında ölüm hallarının azalmasına baxmayaraq, gənclər arasında infarkt bütün dünyada artmaqdadır. Həm Azərbaycanda, həm də dünyanın bütün yerlərində kardioloqlar və ictimai səhiyyə mütəxəssisləri bunu əhali sağlamlığı üçün təcili vəziyyət hesab edir. Gənc yaşlı şəxslər 20-50 yaş arasında olanlardır və hər bir ölkənin sosial, iqtisadi və digər aspektlərdən ən məhsuldar əhali qrupudur. Bu səbəbdən, həmin yaşdakı şəxslərin xəstələnməsi və ölümü həm dərhal, həm də orta və uzunmüddətli vədədə ölkələr üçün ciddi problemlərə gətirib çıxaracaq".

**ÜRƏK DAYANMASI VƏ İNFARKTIN FƏRQİ**

Həkim bildirir ki, ürək dayanması və infarkt eyni anlamı vermir. Ürək dayanmasının səbəbləri müxtəlifdir. Ürək infarktı isə ürəyə qan axınının dayanması nəticəsində ürək əzələsinin hər hansı hissəsinin ölümü deməkdir: "Miokard infarktı artıq yalnız ahıl, orta yaşlı insanların xəstəliyi deyil. Gənclər ürək-damar xəstəlikləri, xüsusilə də infarkt və insult barədə məlumatsızdırlar. Son 20-30 ildə maarifləndirmə daha çox yaşı 40-50 yaşdan yuxarı insanları əhatə edib".

**İNFARKT KİŞİLƏRDƏ, YOXSA QADINLARDA DAHA ÇOX BAŞ VERİR?**

Həkim ürək dayanmasına kardiomiopatiya (qalınlaşmış ürək əzələsi), ürək çatışmazlığı, aritmiya (qeyri-müntəzəm ürək döyüntüsü) və miokard infarktı kimi bir neçə vəziyyətin səbəb olduğunu deyir: "Araşdırmalar göstərir ki, miokard infarktı halları gənclərdə artmaqdadır. ABŞ və bir sıra digər inkişaf etmiş ölkələrdə aparılmış tədqiqatlar göstərib ki, infarkt diaqnozu qoyulmuş hər 5 nəfərdən birinin yaşı 40 və daha aşağıdır. Ən təhlükəli tendensiya isə bu rəqəmin hər il 2% artmasıdır. 2019-cu ildə "American Journal of Medicine"-də nəşr olunan araşdırmadan bəlli oldu ki, 40 və daha gənc yaşda infarkt keçirmiş şəxslərin sonralar infarkt, insult və digər səbəblərdən ölmə ehtimalı yaşlı insanlarda olduğu qədərdir. Problem yalnız inkişaf etmiş ölkələrdə deyil, orta və yüksək-orta gəlirli ölkələrdə də artmaqdadır. Araşdırmalar göstərir ki, Azərbaycanda, Rusiyada, Pakistan və Hindistanda insanlar gənc yaşlarda infarkt keçirirlər. Bu oxşar mənzərənin arxasında duran səbəblər isə risk faktorlarının, bəşəriyyətin həyat tərzinin, ətraf mühitin çirklənməsinin dünyanın bütün guşələrdə eyni olmasıdır. Ürək infarktı adətən kişilərdə daha çox baş verir. Lakin son araşdırmalar gənc yaşlı kişilərə nisbətdə, daha çox gənc qadının infarkt keçirdiyini və onların klinik nəticələrinin daha pis olduğunu göstərir. Son 10-15 ildə infarkt səbəbi ilə ABŞ-də hospitalizasiya olunan şəxslər arasında qadınların payı əhəmiyyətli dərəcədə artıb".

**GƏNC YAŞLI ŞƏXSLƏR NƏLƏRƏ DİQQƏT ETMƏLİDİRLƏR?**

N.Seyidov vurğulayıb ki, Ümumdünya Səhiyyə Təşkilatı, Azərbaycanda Səhiyyə Nazirliyi və Azərbaycan Kardiologiya Cəmiyyətinin apardığı təhlillər və tədqiqatlar göstərir ki, ürək-damar xəstəliklərinin inkişafı baxımından risk faktorları gənc yaşlarda qazanılır, inkişaf edir. Bununla yanaşı, infarkt keçirmiş gənclərdə uzun illər gizli getmiş digər əsas xəstəliklər olub:

"Ən ciddi və çox rast gəlinən risk faktorlarına yüksək qan təzyiqi, diabet, yüksək xolesterin və piylənmə daxildir. Bütün bu xəstəliklər oksigenlə zəngin qanı ürəyə daşıyan arteriya və digər qan damarlarını tıxaya və zədələyə bilir. Vurğulanmalıdır ki, diabeti olan xəstələrdə ürək xəstəliyinin inkişafı riski iki dəfə artmış olur. Diabetlə bağlı damar və digər orqan zədələnmələri daha erkən yaşlarda başlayır, lakin uzun illər gizli qalır.

2020-2022-ci illər əlavə təhdidi ortaya qoyub. Belə ki, araşdırmalardan biri göstərib ki, pandemiyanın ilk ili ərzində infarktdan ölümlər 14% artıb və onların böyük qismi məhz 25-44 yaşlıların payına düşüb. Əlbəttə ki, COVID-19 xəstəliyi orqanizmdə müxtəlif səviyyəli iltihab proseslərini aktivləşdirir, qanın daha da qatılaşması və tromboza meylliyi artırır. Bu isə yoluxmuş insanlarda infarkt riskini yüksəltmiş olur. Problem daha çox gənc yaşlı şəxslərin öz risklərinin fərqində olmamasıdır. Həkimlər də, ənənəvi olaraq gənc yaşlı xəstələrdə ürək-damar xəstəlikləri "az və nadirdir" düşüncəsinin caynaqlarından qurtulmalıdırlar".



Nabil Seyidov



## EKSPERT MƏSLƏHƏTİ

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) yanında İctimai Şuranın üzvü, həkim-diyetoloq İlqar Şamilovun sözlərinə görə, ürək-damar sistemi xəstəliklərinin artmasının əsas səbəbi insanların sağlam həyat tərzi keçirməməsidir:

"İnsanlar sağlam qidalanmaya, fiziki aktivliyə, keyfiyyətli yuxu rejiminə üstünlük verməli, stressdən uzaq olmalıdırlar. Tövsiyə edirik ki, insanlar keyfiyyətsiz, zərərli yağları rasionlarından uzaq etsinlər".

İ.Şamilov deyir ki, əvvəlki dövrlərlə müqayisə etsək, indi fiziki aktivliyimiz çox azalıb: "Ölkəmizdə avtomobillərin sayı artıb. Biz A nöqtəsindən B nöqtəsinə getdiyimiz zaman avtomobildən, ictimai nəqliyyatdan çox istifadə edirik. Eyni zamanda, yürüş etməyi, idmanla məşğul olmağı sevmirik. Ürək xəstəliklərinin yaranmaması üçün yuxu rejimi də keyfiyyətli olmalıdır".

Həkim-diyetoloq deyir ki, stressdən də uzaq olmaq bu xəstəliyin yaranmamasına kömək edir: "Rafinə olunmuş şəkərdən də uzaq olmaq lazımdır. Ürək-damar sistemi xəstəliklərindən uzaq olmaq üçün vətəndaşlar qırmızı ətdən, kolbasa, sosiskadan istifadə etməməlidirlər. Balıq, toyuq əti, mövsümi meyvə və tərəvəzlərdən istifadə edə bilərlər. Ət məhsullarını hazırlayan zaman yağda qızardılmışlara üstünlük verilməməlidir. İnsanlar bunlara əməl etsələr, gələcəkdə bu xəstəlikdən əziyyət çəkməyəcəklər".

**"HƏR BEŞ NƏFƏRDƏN BİRİ STENT DAŞIYICISIDIR"**

Qida eksperti Fərid Səfərov vurğulayıb ki, hazırda bəlkə də hər beş nəfərdən biri stent daşıyıcısıdır: "Ürək xəstəliklərinin başlıca səbəblərindən biri düzgün qidalanmamaqdır. Sağlam ürəyə sahib olmaq üçün zeytun yağı, balıq, qoz, badam, fındıq, alma, sarımsaq, pomidor, lobya, noxud, mərci, ispanaq, yaşıl çayı qida rasionunuza mütləq daxil edin. Eyni zamanda, balanslı qidalanmaq, fiziki aktivlik lazımdır".

HƏLƏLİK APTEKLƏRDƏ GÖZLƏNİLƏN UCUZLAŞMA MÜŞAHİDƏ OLUNMUR

# DƏRMAN BAZARI İLƏ BAĞLI YENİ QƏRAR İŞLƏMİR

Tarif Şurasının son qərarına əsasən yuxarı hədd keçilməmək şərtilə dərmanları daha ucuz satmaq mümkündür. Lakin mövcud qərardan iki aya yaxın vaxt keçsə də, dərman bazarında hansısa ciddi dəyişiklik yoxdur.





ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Tarif Şurası tərəfindən dərmanların qiymətlərinin tənzimlənməsi ilə bağlı 15 sentyabr 2023-cü il tarixində yeni qərar qəbul edilib. Dəyişikliyə görə, artıq dərmanlarla bağlı vahid qiymət siyasəti yoxdur. Yəni dərmanların yuxarı həddi müəyyən edilir və apteklər dərman vasitələrini bundan daha aşağı qiymətə sata bilərlər. Bəs tətbiq edildiyi zaman ərzində bu qərar özünü doğrulda bilirmi?

### BƏZİ DƏRMANLAR UCUZLAŞIB

Milli Məclisin Səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədli dedi ki, bu qərardan sonra daha ucuz dərmanlar ölkəyə gətirilə biləcək: "Dərman vasitələri haqqında" qanunvericilikdə olan dəyişikliklər və Nazirlər Kabinetinin müvafiq qərarından sonra dərman qiymətlərinin üst həddi Tarif Şurası tərəfindən müəyyənləşdirildi. Aşağı hədlər isə rəqabət prinsiplərinə uyğun şəkildə tənzimlənəcək. Dərman idxalını həyata keçirən böyük şirkətlər keyfiyyətinə təminat verilən və daha ucuz qiymətə olan preparatları ölkəyə gətirəcəklər. Dərman preparatlarının ölkəyə idxalı nisbətən asanlaşacaq. Beləliklə, rəqabət nəticəsində qiymətlərin aşağı düşməsi mümkün olacaq. Hazırda apteklərdə müəyyən preparatlarda qiymətlərdə ucuzlaşmanı müşahidə edirik".



Müşfiq Məmmədli

### TAPILMAYAN DƏRMAN PROBLEMİMİZ ARADAN QALXIB

Deputatın sözlərinə görə, bu qərardan sonra tapılmayan dərman problemimiz aradan qalxıb: "8-9 ay bundan öncə bəzi dərman preparatlarının apteklərdə tapılmadığının şahidi olurduq. Çünki bir çox dərmanların qiyməti cəlbedici olmadığına görə, idxal edən şirkətlər tərəfindən onların gətirilməsi maraqlı deyildi. Amma dəyişikliklərdən sonra müşahidə edirik ki, hansısa preparatın olmaması məsələsi daha gündəmdə deyil. Artıq lazım olan preparatları dərman bazarında tapa bilirik. Amma qiymətlərdəki enmələri hələ düşündüyümüz səviyyədə görə bilmirik, gözlənilən effekt alınmır. Yəqin ki, bir neçə aydan sonra bunu da müşahidə edə biləcəyik. Qiymətlərin enməsi insanların əlavə xərclərinin daha da azalmasına gətirib çıxaracaq".

## BU ŞİRKƏTLƏRƏ QADAĞA TƏTBİQ EDİLSİN

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli bildirdi ki, bu yenilik, əksinə, apteklərə ziyan verəcək: "Aptek sahəsində hər hansı ciddi dəyişiklik müşahidə olunmur. Bu qərarın dərmanların çeşidinə, yaxud dərman bazarında gətirilməyən preparatların yenidən bazara qayıtmasına elə də ciddi təsiri olmayacaq. Bundan əvvəlki qərarlarda dərmanın üzərinə konkret rəqəm vurulurdu və həmin qiymətdən aşağı və yuxarı satmaq qadağan idi. İndi isə topdansatışla məşğul olan bir neçə iri şirkətlər öz aptek şəbəkələrində istədikləri qiyməti qoymaqla digər pərakəndə satışla məşğul olan apteklərin sıradan çıxmasına nail olacaqlar. Topdansatış ilə məşğul olan şirkətlərə aptek şəbəkələri yaratmaları ilə bağlı qadağalar tətbiq olunsa, o zaman bazarda pərakəndə satışla fəaliyyət göstərən apteklərin sıradan çıxmasının qarşısı alına bilər. Əks halda, bu qərar tədricən kiçik sahibkarların fəaliyyətlərini dayandırmalarına gətirib çıxaracaq. Çünki apteklərin maliyyə imkanları eyni deyil".



İlqar Hüseynli

## QİYMƏTLƏRİN LİBERALLAŞMASI VACİBDİR



Ekspertin fikrincə, dərman qiymətlərində böyük fərq olmayacaq: "Qiymətlər arasında elə böyük faiz fərqi yox idi. Ona görə deyə bilmərik ki, insanları dərmanların ucuzlaşması ilə bağlı ciddi sürprizlər gözləyir. Çünki əslində qiymət ucuzlaşması baş vermir. Amma dərman bazarında qiymətlərin liberallaşması vacibdir".

### "İNSANLARIN QİYMƏTİ BİLMƏYƏ İXTİYARI VAR"

Azərbaycan Tibb Universitetinin Farmakologiya kafedrasının dosenti, farmakoloq Aydın Əliyev qeyd etdi ki, insanlar bu qərardan məlumatlı olmalı və apteklərdən haqqını tələb etməlidir: "Müəyyənləşdirilmiş qiymətdən daha aşağı satan apteklər mövcuddur. Bu qərar apteklərə sahibkarlıq nöqteyi-nəzərdən xeyirdir ki, insanlar onlara daha çox müraciət edir. Vətəndaşlar aptekdə soruşmalıdır ki, aldığı dərmana Tarif Şurası hansı qiyməti qoyub. İnsanlar dərmanların qiymətinin aşağı və yuxarı həddini bilməlidir. Vətəndaşlar Tarif Şurasının qərarından istifadə etməlidir".

Yeni qanunun nə qədər işlək olduğunu müəyyən etmək üçün şəhərin müxtəlif istiqamətlərindəki apteklər arasında da sorğu keçirdik. Sorğu zamanı ortaya çıxdı ki, həm paytaxtın mərkəzində, həm də kənarda yerləşən apteklərin heç birinin yenilikdən xəbəri yoxdur. Özəl şirkətlərə məxsus apteklərdən bildirildi ki, onlara qiymət tabe olduqları müəssisə tərəfindən göndərilir. Şəxsi apteklərdə isə qiymətlər depolar tərəfindən müəyyən edilir. Depo apteklərdən verilən məlumata görə, onlarda Tarif Şurası tərəfindən qəbul edilən qiymətlər əsasında satış edilir.



Aydın Əliyev




# 100 MİN ƏLYAZMA, 40 MİN EKSPONAT

**Daşkənddəki İslam Sivilizasiyası Mərkəzinin tikintisi başa çatmaq üzrədir. Yeddi hektar ərazini əhatə edən mərkəzin bu ilin sonuna qədər ziyarətçiləri qəbul etməsi planlaşdırılır.**


TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Daşkənd şəhərinin qədim hissəsində - Almazar rayonunda, məşhur Həzrəti İmam (Həstimom) kompleksinin ərazisində yerləşən İslam Sivilizasiyası Mərkəzinin (İSM) beş ildir davam edən tikintisi başa çatmaq üzrədir. Yeddi hektar ərazini əhatə edən mərkəzin bu ilin sonuna qədər ziyarətçiləri qəbul etməsi planlaşdırılır.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin tikilinin İslam Mədəniyyəti Mərkəzi deyil, İslam Sivilizasiyası Mərkəzi adlandırılması təklifi məmnunluqla qarşılanıb.

İslam Sivilizasiyası Mərkəzi təkcə türk dünyasında deyil, bütün İslam dünyasında bu istiqamətdə fəaliyyət göstərən elmi mərkəzlər üçün baza rolunu oynayacaq.

Daşkənd şəhərinə mediatur zamanı jurnalistləri Mərkəzdə müşayiət edən İSM-in beynəlxalq şöbəsinin rəhbəri Səid Kamil Xalxocayev məlumat verdi ki, mərkəzin yaradılmasında əsas məqsəd bütün dünyaya İslamın terror deyil, mədəniyyət daşıyıcısı olduğunu isbatlamaqdır: "Məqsədimiz Orta Asiyada analoqu olmayan, zəngin dəyərlərə, gözəl adət-ənənələrə malik İslamı dünyaya nümayiş etdirmək, onun sülh, humanizm və inkişaf dini olduğunu göstərməkdir. Bəzən dünyanın müxtəlif yerlərində İslamı terrora çağırış edən ideologiya kimi qəbul edirlər. Amma baş verən qanlı hadisələrin İslam mədəniyyəti ilə heç bir əlaqəsi yoxdur".

Mərkəz təmsilçisi bildirdi ki, İSM-də region alimlərinin böyük irsi, onların dünya sivilizasiyasına, mədəniyyətinə, elm və tarixinə, eləcə də İslam mədəniyyətinə töhfələri öyrəniləcək: "İslamın zəngin və tarixi mədəniyyət daşıyıcısı olduğunu tezliklə bütün dünya görəcək. Mərkəz təkcə İslam həmrəyliyində deyil, dünya xalqlarının həmrəyliyində böyük rol oynayacaq, İslam dünyasının maddi və mənəvi mədəniyyətinin qorunmasına töhfələr verəcək".

## DOQQUZ BÖLMƏDƏN İBARƏT MUZEY

İslam Tarixi Muzeyi doqquz bölmədən ibarətdir. Binanın mərkəzində, 65 metrlik günbəzin altında İslam dünyasının incisi olan Hz. Osmanın "Quran"ı qorunur. "İslamdan əvvəlki dövrdə Orta Asiya", "Mərkəzi Asiyada İslamın yayılması", "Təhsil", "Elm", "Memarlıq və şəhərsalma", "İncəsənət və sənətkarlıq", "Ənənələr" və "Üçüncü İntibah - Yeni Özbəkistan" bölmələri isə bu salonun ətrafında yerləşdirilib. Birinci mərtəbədə 550 yerlik konfrans zalı da nəzərdə tutulub. Şərq üslubunda möhtəşəm günbəz, dörd tərəfdən isə hündürlüyü 34 metr olan minarələr ucaldılıb. Binanın birinci mərtəbəsində muzey, qədim əlyazmaları və əşyaları mühafizə və bərpa etmək üçün otaqlar, mətbəə, kitab mağazaları olacaq. Mərkəzdə tarixi mənbələr və eksponatlar nümayiş etdiriləcək, tematik sərgilər təşkil olunacaq.

Mərkəzin ikinci mərtəbəsində təxminən 15 min kvadratmetrlik sərgi zalı olan İslam Sənəti Muzeyi yerləşir.

Üçüncü mərtəbədə rəqəmsal nüsxələri ilə birlikdə 100 min əlyazma, müxtəlif müasir dövri nəşrlər olan kitabxana, informasiya-resurs mərkəzi, elmi kafedralar və inzibati otaqlar yer alıb.

Yerli və xarici mütəxəssislər mərkəzdə elmi tədqiqatlarla məşğul olacaq, onların fəaliyyətinin nəticəsi kimi ensiklopediyalar, elmi nəşrlər çap olunacaq, televiziya verilişləri hazırlanacaq, filmlər çəkiləcək. Yerli və xaricdə saxlanılan qədim əlyazmaların, litoqrafiyaların, tarixi sənədlərin, müasir dini və maarifləndirici ədəbiyyatın ən böyük məlumat bazasına sahib muzeydə 40 mindən çox eksponat nümayiş etdiriləcək.



## ZAMAN DƏHLİZLƏRİ

Muzeyin fondu da elmi cəhətdən inkişaf etdirilib. Ekspozisiyalar İslam elminə, incəsənətinə və mədəniyyətinə aid yerli və xarici eksponatların, antik dövrün arxeoloji abidələrinin tematik seçilmiş kolleksiyasından ibarətdir. Onların arasında "zaman dəhlizləri" yer alıb - eksponatlar sivilizasiyanın inkişafına uyğun yerləşir.

Mərkəzdə fəaliyyət göstərəcək Beynəlxalq İslam Akademiyasında 200-dən çox tələbə magistratura və doktorantura səviyyəsində təhsillərini davam etdirə biləcək. Özbəkistan Prezidenti də qeyd edib ki, Beynəlxalq İslam Akademiyasının müəllimləri və tələbələri bu mərkəzdə öz biliklərini zənginləşdirəcəklər: "Bu mərkəz əsrlər boyu xalqlara xidmət edəcək". Mərkəz ziyarət turizmi üçün bələdçi və tərcüməçilər də hazırlayacaq, İslam sivilizasiyasının öyrənilməsinə yönəlmiş mühazirələr, sərgilər, konfranslar, simpoziumlar və digər tədbirlər təşkil ediləcək.

### AZƏRBAYCANLA ƏMƏKDAŞLIQ

Səid Kamil Xalxocayev bildirdi ki, hazırda mərkəz 15 ölkənin 30-a yaxın təşkilatı ilə əməkdaşlıq edir. Həmin ölkələrin muzeyləri, universitetləri, kitabxana fondları, elmi-tədqiqat mərkəzləri ilə əlaqələr qurulub. Mərkəz Azərbaycanla da əməkdaşlıq edir: "Azərbaycan İslam ölkələri arasında əməkdaşlığa böyük töhfə verir və bu istiqamətdə çoxsaylı layihələr həyata keçirir. İslam dəyərlərinin təbliği istiqamətində çoxlu işlər görən Azərbaycanın təcrübəsi çox böyükdür. İslam Sivilizasiyası Mərkəzinin muzeyində İslam irsi eksponatlarının zənginləşdirilməsi, mədəniyyət mərkəzinin yaradılması məsələlərində Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıq edirik. Əməkdaşlığımızın təkcə türk dünyasına deyil, bütün İslam aləminə faydası olacağına ümid edirik".

Mərkəzin Özbəkistan turizminin inkişafına böyük töhfə verəcəyi gözlənilir. Bununla ölkənin dini və tarixi turizm marşrutlarına nəhəng elm, təhsil və mədəniyyət marşrutu da birləşəcək.



ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# ƏMANƏTÇİLƏR ÜÇÜN ƏLA ŞANS




Əgər vətəndaşın bankda 50 min manat depoziti varsa, səkkiz faizlik depozitlə onun illik gəliri dörd min manat edir. Bu zaman dörd min manatdan 2400 manat çıxılır. Vətəndaş yerdə qalan 1600 manatdan 10 faiz vergi verməlidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Vergi Məcəlləsinə edilən dəyişikliyə görə, Azərbaycanda vətəndaşların banka qoyduğu əmanətlərdən gələn aylıq faiz gəlirlərinin vergidən azad olunması prosesi həyata keçiriləcək. Xatırladaq ki, bundan öncə banklardakı əmanətlərdən gələn aylıq faiz gəlirləri 10 faiz həcmində vergiyə cəlb edilirdi. Bu qaydadan həm insanlar, həm mütəxəssislər narazı idi. İndi bu qaydalara dəyişiklik edilməsi nəzərdə tutulur. Lakin burada aydın olmayan məqamlar mövcuddur...

### ƏSAS MAHİYYƏT GƏLİRLƏRİN VERGİDƏN AZAD OLUNMASIDIR

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov dedi ki, Vergi Məcəlləsinə əmanətlərdən gələn faizlərlə bağlı iki dəyişiklik edilməsi nəzərdə tutulub: “Dəyişikliklərin əsas mahiyyəti orta əmanətə sahib vətəndaşların aylıq və illik gəlirlərinin vergidən azad olunmasıdır. Yeni qaydaların yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur. Dəyişikliklərə görə, aylıq 200 manata, illik 2400 manata qədər olan faiz gəlirləri vergidən azad ediləcək. Əgər vətəndaşın bankda 30 min manatlıq əmanəti varsa, həmin əmanətə görə səkkiz faiz gəlir hesablanırsa, bu o deməkdir ki, vətəndaşın illik əldə etdiyi gəlir 2400 manatdır. Bu halda vətəndaşın bütün il ərzində faizdən qazandığı gəlir tamamilə vergidən azad olunur. Yox, əgər vətəndaşın bankda 50 min manat depoziti varsa, vergi səkkiz faizdən hesablanırsa, həmin vətəndaşın illik gəliri dörd min manat edir. O zaman dörd min manatdan 2400 manat çıxılır. Vətəndaş yerdə qalan 1600 manatdan 10 faiz vergi verməlidir. Yəni müştərinin illik 4000 manatlıq gəlirinin 160 manatı vergiyə tutulur. İkinci dəyişiklik isə belədir ki, əgər vətəndaş 18 aylıq əmanət yerləşdiribsə, o, əldə etdiyi gəlirdən asılı olmayaraq tamamilə vergidən azad olunacaq”.




Vüqar Bayramov
**Foto:** Firudin Səlimov/Global Media Group

## BANKLARDA ƏMANƏTLƏR ARTACAQ?

Millət vəkilinin fikrincə, bu dəyişikliyin iki səbəbi var: “Hər iki yeniliyin əsas məqsədi banklara daha çox əmanətin cəlb edilməsinə nail olmaqdır. Çünki 2023-cü ilin fevralından etibarən vergi güzəştlərinin ləğv edilməsi banklara əmanətlərin cəlb olunmasına birbaşa təsir göstərmişdi. Digər məqsəd isə ondan ibarətdir ki, 18 ay və daha uzun müddətli əmanətlərin sayı artsın”.

### HÜQUQİ YOX, FİZİKİ ŞƏXSLƏR

Azərbaycan Banklar Assosiasiyasının eksperti, bank məsələləri üzrə mütəxəssis Qorxmaz Ağayev bildirdi ki, qanunda ediləcək birinci dəyişikliyə görə, güzəşt müddəti nəzərdə tutulmayıb: “Depozitlərlə bağlı olan iki dəyişiklik də yalnız fiziki şəxslərə aiddir. Hüquqi şəxslərə şamil edilmir. Əvvəl əmanətə görə, ödənilən məbləğdən 10 faiz vergi tutulurdu. İndi edilən dəyişikliyə görə aylıq 200 manatadək qazanc varsa, ondan heç bir vergi tutulmayacaq. 200 manatdan yuxarı gəlirlərə isə yenə də 10 faiz vergi tətbiq olunacaq. Bu dəyişikliklə bağlı güzəştin qüvvədə olma müddəti göstərilməyib. Yəni qanun dəyişməyənə qədər qüvvədə qalacaq”.



### YALNIZ MİLLİ VALYUTA ÜÇÜN KEÇƏRLİDİR

Q.Ağayevin sözlərinə görə, ikinci dəyişiklikdə isə güzəşt müddəti təyin edilib: “Vətəndaşlar əmanətlərini 18 aydan çox müddətə qoyarlarsa, ayda 100 min manat gəlir əldə etsələr də, heç bir vergi ödəməyəcəklər. Bu dəyişikliyin qüvvədə olma müddəti hazırda üç ildir. Dəyişikliklər yalnız milli valyutada qoyulan əmanətlərə aiddir. Digər valyutalarda olan əmanətlərə bu güzəştlər tətbiq edilməyəcək”.

## DAHA UZUNMÜDDƏTLİ KREDİT İMKANI

Ekspert qeyd etdi ki, yenilik həm banklar, həm də insanlar üçün faydalıdır: “Bu dəyişikliklərin əsas əhəmiyyəti vətəndaşların bank sisteminə inamını daha da gücləndirərək onları pullarını daha uzun müddətə banka qoymağa təşviq etməkdir. Vətəndaş üçün də önəmlidir ki, əlində nağd pul saxlamayacaq, banka qoyduğu vəsaitdən uzunmüddətli gəlir əldə edəcək və heç bir vergi də ödəməyəcək. Bank üçün isə əhəmiyyəti budur ki, əhalinin depozitləri bankın fəaliyyətinin əsas maliyyə mənbələrindən biridir. Cəlb edilmiş depozitlər hesabına banklar kreditləşmə fəaliyyətini daha da gücləndirəcəklər. Banklar üçün ikinci faydası odur ki, daha uzunmüddətli kreditlər verə biləcəklər. Vətəndaş biləcək ki, 18 ay müddətinə depozit qoysa və onu çıxarmasa tam vergi güzəşti şamil olunacaq. Belə olan halda əmanətinə toxunmayacaq və bank da həmin vəsait hesabına daha uzunmüddətli kreditləşmə həyata keçirəcək”.

### ƏMANƏT HƏM DƏ İNVESTİSİYA ALƏTİDİR

Q.Ağayev düşünür ki, Vergi Məcəlləsinə edilən dəyişikliklər həm də iqtisadiyyatımızın güclənməsinə səbəb olacaq: “Əmanət həm də investisiya alətidir. Bu halda onların investisiya aləti kimi cəlbediciliyi daha da artacaq. İqtisadiyyat üçün də faydalı olacaq ki, vətəndaşlar vəsaitləri nağd yox, bank hesablarında saxlayacaqlar. Beləliklə, iqtisadiyyatın nağdsızlaşdırılması prosesi daha da sürətlənəcək”.



Qorxmaz Ağayev

# Universitetlərin nöqsanlarını göstərən "GÜZGÜ"



Ali təhsil müəssisələrinin akkreditasiya qiymətləndirilməsindən keçirilməsi prosesi davam edir. Proses ali təhsil müəssisəsinin ümumi fəaliyyətinin dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədi daşıyır.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanda ali təhsil müəssisələrinin akkreditasiya qiymətləndirilməsindən keçirilməsi prosesi davam edir. Hazırda 10 ali məktəbdə proses yekunlaşıb. Akkreditasiyadan keçməyən üç universitetin - ADA Universiteti, ATU, BMU-nun fəaliyyəti isə yenidən yoxlanılacaq.

Prosesin yekunlaşdığı ali təhsil müəssisələri Akkreditasiya Şurası tərəfindən növbəti 5 il üçün akkreditə olunub. Nəticələri "qismən uyğundur" və ya "uyğun deyil" hesab edilən təhsil müəssisələrinin isə bir ildən sonra yenidən akkreditasiya olunmaları barədə qərar qəbul edilib.

Cəmiyyət üçün maraqlı olan bu prosesin ümumilikdə təhsilin keyfiyyətinə, universitetlərin reytinqinə təsirinin nə dərəcədə olmasıdır.

Qeyd edək ki, ölkəmizdə təhsil müəssisələrinin akkreditasiyasını Təhsildə Keyfiyyət Təminatı Agentliyi həyata keçirir. Hələlik bizdə xarici ölkələrdəki kimi bu proseslə məşğul olan özəl agentliklər və təsisatlar formalaşmayıb.



Fazil Mustafa

Foto: Rüfət Mikayılov/ Global Media Group

### TƏHSİL MÜƏSSİSƏSİ ÜÇÜN HÜQUQİ TƏMİNAT

Təhsildə Keyfiyyət Təminatı Agentliyindən (TKTA) sorğumuza verilən cavabda bildirilir ki, akkreditasiya prosesi Elm və Təhsil Nazirliyinin Kollegiyasının qərarı ilə təsdiq edilmiş institusional akkreditasiya meyarları - 7 əsas fəaliyyət istiqamətini əhatə edən 30 meyar, 271 indikatordan ibarətdir. Proses "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"na uyğun olaraq yaradılmış müstəqil Akkreditasiya Komissiyası tərəfindən həmin meyarlar üzərindən aparılır: "Müstəqil ekspert qrupunun tərkibinə təhsil üzrə yerli və xarici ekspertlər, elmi müəssisələrdən nümayəndələr, ixtisaslaşmış mütəxəssislər, təhsilalanlar və işəgötürənlər cəlb edilir". Agentlikdən bildirilib ki, proses ali təhsil müəssisəsinin ümumi fəaliyyətinin dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədi daşıyır: "Təhsil müəssisəsinin statusunun müəyyən edilməsi, hər bir ixtisas üzrə kadr hazırlığı potensialının və təhsilalanların say həddinin müəyyən olunması və onun fəaliyyətinin növbəti müddətə uzadılması üçün hüquqi təminat yaradır".

### UNİVERSİTETLƏRİN ÖZLƏRİNƏ NƏZARƏTİNİN GÜCLƏNMƏSİ

Millət vəkili Fazil Mustafa hesab edir ki, universitetlər və onların filialları müvafiq tələblərə cavab verməlidirlər: "Bu proses bilavasitə ali məktəblərin reytinqini təyin edir. Tələblərə cavab verən ali məktəblərin problemi olmayacaq və onlar daha çox tələbə qəbul edəcəklər. Prosesin ali məktəblərin fəaliyyətlərini yenidən düzənləmələri baxımından da faydası var. Əks halda, durğunluq içində olan ali məktəblərin problemlər yaşaması qaçılmazdır".

## "QİYMƏTLƏNDİRMƏDƏ 100 FAİZ DƏQİQ ÖLÇÜ MÜMKÜN DEYİL"

Akkreditasiyadan keçən Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı akkreditasiya qiymətləndirməsinin dünyanın hər yerində 4-5 və ya 7 ildən bir keçirilən proses olduğunu bildirdi: "Ali məktəblərin müəyyən parametrlər, meyarlar və indikatorlara uyğunluq səviyyələri ölçülür. Həmin ölçülər normala yaxın olanda akkreditasiya edirlər. Parametrlər və indikatorlarda kəskin fərqlər olanda akkreditasiyaya "uyğun deyil" rəyi verilir. Təbii ki, prosesdə 100 faiz dəqiq ölçü mümkün deyil". Professor akkreditasiya qiymətləndirməsinin iki növünün olduğunu bildirir. Belə ki, bütövlükdə ali məktəbin səviyyəsini ölçən ümumi institut akkreditasiyası və ayrı-ayrı ixtisaslar üzrə kadr hazırlığının hansı vəziyyətdə olduğunu ölçən proqram qiymətləndirməsi mövcuddur: "Əsasən alı məktəblərin səviyyəsi və keyfiyyətini ortaya çıxarmaq üçün ümumi akkreditasiya keçirilir. Hesab edirəm ki, bizdəki ali məktəblərin əksəriyyəti bu ümumi akkreditasiyadan keçəcək. Amma fərqlərin bir az kəskin olduğu universitetlərlə bağlı problemlər çıxacaq. Onlara vaxt verəcəklər. Mənim proqnozuma görə, Azərbaycandakı ali məktəblərin əksəriyyəti parametrlərə uyğundur. Hərçənd əksinə də ola bilər. Məsələn, bir neçə ali məktəb "uyğun deyil" rəyi ala bilər. Ancaq bunların əksəriyyəti əsasən dövlətin qurduğu ali məktəblər və onların filiallarıdır". Professor hesab edir ki, regionlarda fəaliyyət göstərən ali məktəblərin filiallarının problemləri daha çoxdur: "Bu da təbiidir. Fikrimcə, zaman keçdikcə onların da qiymətləndirilməsi "uyğun" hesab ediləcək".



## "BİZDƏKİ AKKREDİTASİYA XARİCİ ÖLKƏLƏRDƏKİ TƏCRÜBƏ İLƏ EYNİDİR"

H.İsaxanlıya görə, akkreditasiya ali məktəbin reytinqinə o qədər də təsir etmir: "Akkreditasiya universitetin səviyyəsini yuxarı və aşağı endirməz. Hamısı oturuşmuş ali məktəblərdir. Akkreditasiya ilə universitetlərin səviyyəsini nə kəskin şəkildə yuxarı qaldırmaq, nə də aşağı salmaq olur. Proses universitetlər üçün də maraqlıdır. Akkreditasiya bir növ ali məktəblərin öz işlərini səliqəyə salmaq, nizam-intizam yaratmaları üçün özünə baxışıdır". H.İsaxanlının sözlərinə görə, bizdəki akkreditasiya prosesi xarici ölkələrdəki təcrübə ilə eynidir: "Bu sahə ilə məşğul olan mütəxəssislər Avropa təcrübəsini öyrənib ölkəmizdə tətbiq edirlər".

### ALİ MƏKTƏBLƏRİN NÖQSANLARINI GÖRƏ BİLƏCƏYİ GÜZGÜ

Təhsil eksperti Qoşqar Məhərrəmovun fikrincə, akkreditasiya keyfiyyətin təminatı deməkdir: "Akkreditasiya universitetin hansı keyfiyyətə təminat verməsini ortaya çıxarır və boşluqlar haqqında rəy verir. Akkreditasiya beynəlxalq səviyyədə olduqda isə universitet özünü beynəlxalq səviyyədə isbat etmək və dünyanın hər yerindən tələbə qəbul etmək istəyində olur". Ekspertin sözlərinə görə, akkreditasiyanın universitetlərin reytinqinə və təhsilin keyfiyyətinə birbaşa təsiri var. Belə ki, Agentliyin xüsusi təlim keçmiş komandası yerli və beynəlxalq standartlara, keyfiyyət təminatı cədvəllərinə əsasən universitetlərdə yoxlamalar aparır: "Bu, universitet üçün öz nöqsanlarını görə biləcəyi bir güzgü olur".



Qoşqar Məhərrəmov

# YENİDƏN NAĞD ÖDƏNİŞLƏRƏ QAYIDIRIQ?



**Əcnəbi turistlərin ölkəmizdə etdiyi nağdsız ödənişlərdə azalma mövcuddur. Turistlərin sayında isə əksinə, sürətli artım qeydə alınır. Ekspertlər yaranmış bu ziddiyyəti bir neçə amillə əlaqələndirirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**2023**-cü ilin yanvar-iyul aylarında əcnəbilər Azərbaycanda bank kartları vasitəsilə 1.2 milyard manatlıq əməliyyat aparıblar. Ötən ilin eyni dövründə isə bu rəqəm 1.3 milyard manat təşkil edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”na görə, bu da illik müqayisədə 7.7 faiz azdır. Azərbaycana gələn turistlərin sayındakı artımla nağdsız ödənişlərin azalması tendensiyası arasındakı ziddiyyətin səbəbi nədir?

### KREDİT KARTLARINDAN İSTİFADƏ İMKANLARI MƏHDUDLAŞIB

İqtisadçı Eyyub Kərimli dedi ki, Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar bəzi kartlar işləmir: “Ötən ilin müvafiq dövrü ilə müqayisədə turizm səfərlərinin sayı 37 faiz artıb. Hazırda bu ilin 6 ayında 1 milyon 143 min insan ölkəmizə səfər edib. Lakin bu turist səfərlərinin strukturuna baxsaq, demək olar ki, 45 faizi - təxminən 477 min insan MDB ölkələrindən gəlib. Bu da dollar vasitəsilə xərclənən nağdsız ödənişlərin həcminə təsir edib. Çünki MDB ölkələrindən gələn insanlar daha çox Rusiyadan səfər edənlərdir. Rusiya isə hazırda müharibə ilə əlaqədar müəyyən sanksiyalar ilə üzləşib. Kredit və bank kartlarından istifadə etmək imkanları məhdudlaşıb. Bank kartlarında bəzən ödəmələrdə problem yaşanıldığı üçün insanlar ödənişləri daha çox nağd həyata keçirirlər. Bu sözsüz ki, statistikaya öz təsirini göstərir”. E.Kərimli bildirdi ki, digər tərəfdən ola bilər ki, ölkəmizdə və dünyadakı bahalaşma ilə bağlı turistlər daha az vəsait xərcləyiblər. Bunu da ikinci səbəb kimi düşünmək mümkündür.




## ÇOX HALLARDA “KARTDAN KARTA” PUL KÖÇÜRMƏSİ TƏKLİF OLUNUR

İqtisadçının fikrincə, vergidən yayınma halları da səbəblərdən biridir: “Ölkədə turizm sənayesində, əsasən də regionlarda fəaliyyət göstərən obyektlərdə çox zaman problemlə üzləşmək mümkündür. Nağdsız ödənişlərin qəbulu üçün bəzi hallarda pos-terminalların işləməməsi, yaxud müxtəlif bəhanələrlə təqdim edilməməsi də rəqəmlərə öz təsirini göstərib. Bu da nağdsız ödənişlərin azalmasına gətirib çıxaran amillərdəndir. Bəzən regionlardakı restoranlarda, hotellərdə, hətta son vaxtlar Bakının özündə də təmassız ödəniş etmək istədikdə pos-terminal təqdim edilmir. Çox hallarda “kartdan karta” pul köçürməsi təklif olunur. Bu da istehlakçı hüquqlarının pozulmasıdır. Belə hallar həmçinin turizm sənayesinə də mənfi təsir göstərir. Dünyanın nağdsız ödənişlərə üstünlük verdiyi bir dövrdə bu hallar yolverilməzdir. Müvafiq orqanlar belə hallarla ciddi şəkildə mübarizə aparmalıdır”.



Eyyub Kərimli

### BU STATİSTİKA MƏNTİQƏ UYĞUN GƏLMİR

Maliyyə məsələləri üzrə ekspert Xalid Kərimli isə qeyd etdi ki, turistlərin sayının artması fonunda nağdsız ödənişlərin də artması gözlənilirdi. Çünki quraşdırılan pos-terminallarda da sayında artım mövcuddur. Həmçinin ölkəmizdə nağdsız ödənişlərin populyarlaşması müşahidə edilir. Amma rəqəmlər isə əksinə, nağdsız ödənişlərin həcminin aşağı düşdüyünü deyir. Fikrimcə, bu statistika məntiqə uyğun deyil.

X.Kərimli dedi ki, burada bir neçə variantı göz önünə gətirə bilərik: “Xarici vətəndaşlar öz xarici kartları ilə ödəniş edir. Gəlib yerli bankdan 3-5 günlük istirahət üçün kart ala bilməzlər. Bizim post-terminallarda xarici kartlarla ödəniş etmək mümkündür. Bizim kartlarla da xarici pos-terminallarda bu imkan var. Çünki kartlar beynəlxalq VİSA, MASTERCARD sistemləridir. Lakin unutduğumuz bir məsələ var ki, Rusiya kartları ilə hazırda Azərbaycanda, həmçinin dünyada alış-veriş etmək mümkün deyil. Çünki Rusiya banklarını mərkəzi sistemlərdən uzaqlaşdırıblar. Ölkəmizə gələn turistlər arasında da ruslar çoxdur. Amma rus turistləri öz kartları ilə alış-veriş edə bilmirlər. Kartların vaxtı bitir və fəaliyyəti dayandırılır. Statistikaya bunun da təsiri ola bilər”.

### BU İL ÖLKƏMİZƏ “KASIB” TURİSTLƏR GƏLİB?

Ekspertin fikrincə, bir səbəb də bu ola bilər ki, son vaxtlar Azərbaycana gələn turistlər daha kasıbdır. Ötən il gələn turistlər arasında ərəblər daha çox idi. İndi ərəb turistlərin sayında azalma müşahidə olunur.

Vergidən yayınma hallarından danışan müsahibimiz bunu səbəb kimi görmədiyini bildirdi: “Pos-terminalın təqdim olunmaması kimi ehtimal da ola bilər. Amma keçən ilə görə, vergidən yayınma artmayıb. Həmçinin, xarici turistə “kartdan karta at” demək o qədər də əlverişli deyil. Yəni səbəbin bu olduğunu düşünürəm”.

## ÜMUMİ XƏRCLƏMƏ ARTIRSA, HEÇ BİR RİSK YOXDUR

X.Kərimlinin sözlərinə görə, bu azalma elə də böyük bir risk ifadə etmir: “Nağdsız ödənişlərin azalan tendensiya ilə gedəcəyini güman etmək olmaz. Çünki indiki azalma da müəmmalıdır. Bütün dünyada meyl nağdsız hesablaşmaların artması yönündədir. O səbəbdən gələcəkdə də bu göstəricinin azalacağını düşünmürəm. Nağdsız hesablaşmalar azalıbsa, yəqin ki, nağd ödənişlərin sayında artım mövcuddur. Ümumi xərcləmə artırsa, heç bir risk yoxdur”.



Xalid Kərimli

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 3317
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

“ELƏ ALÇALDICI, TƏHQİRAMİZ SÖZLƏR DEYİRDİLƏR Kİ...”

# Konduktorluqdan FUTBOLA UZANAN ÇƏTİN YOLÇULUQ



Qadınlardan ibarət Azərbaycan millisinin kapitanı Sevinc Cəfərzadə arzularına çatmaq üçün çox çətinliklərə sinə gərib. Bu gün o, qadın olduğu üçün mübarizəsini yarımçıq qoyan bütün xanımlara örnəkdir.

SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Onun bugünkü uğurunun arxasında böyük zəhmət, əzm, mübarizə, sözün əsl mənasında nəticəsi qalibiyyət olan müharibə var idi. Bu gün o, qadın olduğu üçün mübarizəsini yarımçıq qoyan bütün xanımlara örnəkdir.

Müsahibimiz futbol üzrə qadınlardan ibarət Azərbaycan millisinin kapitanı Sevinc Cəfərzadədir.

### “ÜÇ YAŞIMDA MƏNİ İNƏK TƏPİKLƏ VURUB”

Lənkəranın Viravul kəndində dördüşaqlı ailədə böyüyüb. Atası avtobus sürücüsü olub. Bütün kənd yerlərində olduğu kimi gəlirləri əsasən həyətdə saxladıqları qoyun-quzudan çıxıb. Elə futbol bacarığını da qoyunların keşiyini çəkərkən kəşf edib: “Futbolçu olaraq formalaşmağımda uşaq vaxtı keçirdiyim qəzanın rolu çoxdur. Üç yaşımda inək məni təpiklə vurub və ürəyimdən ciddi zərbə almışam. Hətta öldüyümü düşünüblər. Qonşumuz Narınc xala ürək masajı edərək məni yenidən həyata qaytarıb. O gündən sonra ailəm stress keçirməyimdən qorxduğu üçün nə istəmişəmsə, “hə” deyiblər. Çünki uşaqlıqda əsəbiləşəndə ürəyim gedirdi. Məhz bu “xəstəliyimə” görə də kənddə yaşamağımıza baxmayaraq, karate, güləş, futbolla məşğul olmuşam. Məni futbola 7-8 yaşımda əmim oğlanları gətirdi. Əslində, məqsəd oynamaq deyildi, məni qapıda qapıçı qoyub, özləri oynayırdı. Daha sonra qoyunlarımız otlayanda mütləq kimsə onlarla dayanmalı idi. Biz də qardaşımla onların qarşısında vaxtımızın keçməsi üçün top çiləyirdik. Qardaşım qapıda durur, mən zərbələr vururdum”.

> *Oyunda özümü pis hiss etməyə başladım. Səbəbsiz ağlamaq istəyirdim. Anamın rəhmətə gedəcəyini hiss etmişdim.*

Sevinc daha sonra kəndin uşaqları ilə oynayarkən onlardan seçildiyinin fərqinə varıb: “Oğlanlardan qız olduğum üçün deyil, oyunumla seçilirdim”.

### YAŞI ARTDIQCA ƏSL MÜBARİZƏSİ BAŞLAYIB

Uşaq olarkən futbol marağı Sevincə mane olmayıb. Amma yaşı artdıqca əsl mübarizəsi başlayıb: “Cinsiyyətimə görə qarşılaşdığım maneələr ən çətini idi. 12 yaşlı qıza elə alçaldıcı, təhqiramiz sözlər deyirdilər ki... Pis olurdum, amma bu sözlərin təsiri top sevgimlə keçirdi. Bir anlıq dayanırdım, sonra topumu götürüb gedirdim. İnsanların təpkisi valideynlərimi də incidirdi, onlar da məni dayandırmağa çalışırdılar”.

### “O QƏND-ÇÖRƏYİN LƏZZƏTİNİ HEÇ NƏDƏN ALMIRAM”

Sevinc deyir ki, hətta atasının yanında avtobusda konduktor işləyəndə belə, ona kinayə ilə “avtobusda qız uşağının nə işi var” deyirdilər: “Atam məni dəstəkləyirdi, çünki özü də uzun müddət futbol oynayıb. İşdən gələndə, kəndin təpəsində dirsəklənib oyunumuza baxırdı. Bəzən özü də oynayırdı. Bir müddət “Xəzər Lənkəran” futbol komandasında, uşaq-gənclər idman məktəbində məşq edirdim. Məkan kənddən 16 km aralıda yerləşirdi. Əvvəlcə məktəbə gedir, gəlib qoyunların növbəsində durarkən yemək yeyir, sonra məşqə gedirdim. Yediyimiz yemək də çörəklə qənd, yaxud kartof ilə soğan idi. Bəlkə sizə qəribə gələr, amma indi müəyyən yerlərə çatmışıq, o qəndlə çörəyin ləzzətini heç nədən almıram”.




Fotolar: Səbinə Şabiyeva /Global Media Group

## “HƏR ŞEYLƏ VİDALAŞDIM”



Sevincin peşəkar futbol karyerası yığma komandaya gəlməsi ilə başlayıb. Deyir ki, peşəkar həyatına ilk addımı anasının dəstəyi ilə olub. Ana kəndin qınağından çəkinsə də, qızının arzusuna çatması üçün əlindən nə gəlibsə, edib: “Xəzər Lənkəran”da Bəhruz və Fərrux adlı gənclər var idi. Onlar bir gün bizə gəldilər və atama dedilər ki, Bakıda futbol üzrə qızlar komandası var, Sevinci də göndərmək istəyərsinizmi? Amma atam razı olmadı. Onlar getdikdə, anam digər qapıdan çıxaraq qarşılarını kəsib və deyib ki, xahiş edirəm, kömək edin, uşağımın arzusu ürəyində qalmasın. Anamın bu sözündən sonra bu işin arxasına düşüblər. Bundan sonra Bakıya oynamağa gəldim”.

Sevinc futboldan qazandığı bütün gəlirini yığmaq üçün anasına verib. Qazandığı ilk böyük məbləğ 1700 dollar olub: “Bir dəfə bizi BƏƏ-yə turnirə çağırdılar. Birinci yeri tutana pul mükafatı verilirdi. Turnirin çempionu olduq. Mənə 1700 dollar pul ödəndi. Anam 500 dollar qazandığımı bilirdi. Onu sevindirmək üçün gödəkçəmin hər cibinə pul qoymuşdum. İlk qazandığım böyük pul o idi. Anam məni təbrik etdi, dedim “ana, digər ciblərimə baxdınmı?” Anam hər cibimdə dolları görəndə təəccübləndi. Kasıblıqdan gələn ailə üçün bu, çox böyük sevinc, fəxr idi. Sonra atamın avtobusu yandı, borclarımız var idi. Mən o borcları futbolun sayəsində bağladım”.

Anası sayəsində peşəkar futbol karyerası başlayan Sevinc anasını itirdikdən sonra futbolla vidalaşmağa qərar verir. Amma yenidən davam etməyə özündə güc tapır və uğurları ilə bayrağımızı dalğalandırmağa davam edir: “Rusiyada oynayırdım. Oyunda özümü pis hiss etməyə başladım. Səbəbsiz ağlamaq istəyirdim. Anamın rəhmətə gedəcəyini hiss etmişdim. Pandemiya vaxtı çox çətinliklə gəldim. Anamı itirəndə bir anda depressiyaya düşdüm, tək futbolla deyil, hər şeylə vidalaşdım. Bu gün də mənim üçün şan-şöhrət, ev, pul əhəmiyyətli deyil. Anamı qaytarmaq üçün bu gün də hər şeyimi verərdim. Ona görə anamdan sonra mənim üçün hər şey bitmişdi. Bu dəfə məni futbola atam qaytardı”.

Sevinci oyun zamanı ən təsirləndirən məqam himnimizin ifasıdır: “Himnimiz sadəcə musiqi deyil. 10 ildən artıqdır ki, milli komandanın üzvüyəm, himn ifa olunanda hər dəfə eyni hissləri keçirirəm. Meydançada dinləmək çox fərqlidir. Bəzən böyük hesabla uduzuruq, gecəni yatmırıq. Uduzduğumuza görə otaqda hönkür-hönkür ağlayan, yemək yeməyən insanlar var. Amma yenidən özümüzdə güc toplayıb, oynadıq. Əslində idmançı uduzmağı da bacarmalıdır. Təbii ki, biz bacardıq ki, bu gün Millət Liqasında uğur qazandıq”.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
16 DEKABR ŞƏNBƏ 2023
www.kaspi.az

## "MİLAN"LA QARŞILAŞMAĞI ARZULAYIRAM"

"Qarabağ"ın mərkəz müdafiəçisi Bəhlul Mustafazadə də oyunun çətin keçdiyini deyib: "Gərgin oyun oldu. İkinci hissənin çoxunu azlıqda keçirdik. Buna baxmayaraq, qələbə qazanmaq istəyirdik və qazandıq. Qələbə ilə birlikdə pley-offa vəsiqə qazana bildik. Çox böyük xoşbəxtlik hissi keçiririk. Bunun davamını gətirmək üçün çalışacağıq".

O, pley-offda arzuladığı rəqibi də qeyd edib: "Arzum, əlbəttə ki, "Milan"la oynamaqdır, amma fərq etməz hansı gələcək. Hamısı güclü rəqiblərdir. Hansı ilə düşsək, maksimum nəticə üçün çalışacağıq".



# "QARABAĞ"IN TARİXİ ZƏFƏRİ

Avrokuboklardakı qürurumuz axır ki, Avropa Liqasının pley-offuna çıxmağı bacarıb. Komandamız bu uğuru Bakıda İsveç təmsilçisi "Hakken"ə qalib gəlməklə rəsmiləşdirib.

Uzun illərdir gözlədiyimiz axır ki, reallaşıb. Avrokuboklardakı qürurumuz "Qarabağ" Avropa Liqasının pley-offuna çıxmağı bacarıb. Son iki ildə ikinciliyi son anda əldən verib Konfrans Liqasının pley-offuna vəsiqə ilə kifayətlənən təmsilçimiz bu dəfə şansı əldən verməyib. Bakıda İsveç təmsilçisi "Hakken"lə görüşün birinci dəqiqəsində hesabı açan ağdamlılar birinci hissəyə əlavə olunmuş üçüncü dəqiqədə üstünlüyünü 2 topa çatdırıb. Düzdür, ikinci hissənin əvvəlində müdafiəçimiz Marko Veşoviç qırmızı vərəqə alaraq oyunun qalan hissəsində komandanı çətin vəziyyətdə qoyub. Amma buna baxmayaraq, "Qarabağ" oyunu 2:1 hesablı qələbə ilə başa vurmağı bacarıb. Almaniyada "Bayer" də Norveç "Mölde"sini 5:1 hesabı ilə darmadağın edincə, komandamızın qrupu ikinci pillədə başa vurması rəsmiləşib. Beləliklə, bir Azərbaycan klubu tarixdə ilk dəfə Avropa Liqasının pley-offuna vəsiqə qazanıb.

Qeyd edək ki, "Qarabağ" 1/16 finalda "Qalatasaray" (Türkiyə), "Lans" (Fransa), "Braqa" (Portuqaliya), "Benfika" (Portuqaliya), "Feyenoord" (Niderland), "Yanq Boyz" (İsveçrə), "Milan" (İtaliya) və ya "Şaxtyor"a (Ukrayna) klublarından biri ilə qarşılaşacaq. Bu mərhələnin püşkatma mərasimi dekabrın 18-də keçiriləcək.

## "BU UĞUR FUTBOLUMUZA BÖYÜK TƏKAN VERƏCƏK"



Ağdam təmsilçisinin baş məşqçisi Qurban Qurbanov tarixi oyundan sonra keçirilən mətbuat konfransında çox sevincli olduğunu bildirib: "Bu uğur həm futbolumuza böyük təkan, həm də futbolçularımıza böyük inam verəcək. Böyük komandaların Bakıya gəlməsi, belə turnirlərdə nəticə üçün oyunlarda oynamaq ancaq Azərbaycan futboluna fayda verə bilər".

Baş məşqçi pley-offdakı potensial rəqiblərlə bağlı sualı da cavablandırıb: "Potensial rəqiblərimizdən hər biri Çempionlar Liqasında oynayacaq komandalardır. Hətta o klubların içərisində ÇL-in qalibi olmağı qarşısına məqsəd qoyanlar da var idi. Hamısı ciddi rəqibdir. Hansısa haqda düşünmüşəm desəm, doğru olmaz. Rəqib kim olur olsun, həmin matçlara çox ciddi hazırlaşacağıq ki, layiqli oynayaq".

Qonaqların baş məşqçisi Per Matias Hoqmo qazanılan uğur münasibətilə "Qarabağ"ı təbrik edib: "Onlara qarşı oynamaq təcrübə idi. Avropa Liqasında yollarına davam edəcəklər. Onları izləməyə çalışacağam. Oyun bizim üçün çətin keçdi. İlk dəqiqədəki qol planlarımızı pozdu. Amma şanslarımız var idi. Sadəcə, istifadə edə bilmədik. Qrupdakı altı oyun bizim üçün təcrübə oldu. "Qarabağ"la ilk matçda demək olar ki, bərabərsəviyyəli oyun getmişdi. Bu gün də yaxşı oynadıq. "Qarabağ"ın beynəlxalq səviyyəli oyunçuları var. Bizdə belə futbolçular yoxdur. Bu da öz təsirini göstərir".

**Qarabağ 2 : 1 Hakken**

Leandro Andrade, 1
Yassin Benzya, 45+4
Bədavi Hüseynov, 90+4-öz qapısına



## AZƏRBAYCANIN AVROPADA YENİ REKORDU

Qazanılan qələbə Azərbaycana UEFA reytinqində növbəti xallar gətirib. Ağdam təmsilçisi bu dəfə ölkə reytinqinə daha 0,500 əmsal əlavə edib.

Nəticədə ölkənin cari mövsümdəki əmsalı 4,875-ə çatıb. Son 5 mövsümdəki ümumi əmsallarının sayı 19,125-dir. Bununla Azərbaycan UEFA reytinqində Rusiyanı geridə qoyaraq, 28-ci pilləyə yüksəlib. Bundan başqa, "Qarabağ"ın bu qələbəsi sayəsində Azərbaycanın Avropa yarışlarında yeni rekordu müəyyən edilib. Ölkəmiz bu mövsüm ilk dəfə 4,875 xal toplayıb. Bundan əvvəl maksimum nəticə 4,375 bal idi. Azərbaycan daha əvvəl 3 dəfə - 2015/16, 2017/18 və 2021/22 mövsümlərində bu göstəricidə dayanıb.

